# KÜLTÜRÜMÜZDƏ

# MUSKA , CADI , OVSUN , TİLSİM , BÜYÜ , SEHİR , FALÇILIQ , RƏQS , AVAZ , XOR OXUMA , ZÜMZÜMƏ, MUSİQİ , MİSK VƏ ƏTİR SÜRMƏK ,BALMASKE,TEATR, DƏLXƏKLİK, DİN ,İLK TANRILAR , İLAHƏLƏR VƏ DEMONLARIN YARANMA SƏBƏBLƏRİNİN BƏŞƏR TARİXİNDƏ KÖK ARAŞTIRMASI

**Yazar : Fərhad Cavadi Yekan Sədi (Abdulla oğlu)**

**İran - Azərbaycan - Urmiya 2014 _ Fevral ayı**

.

İlk iskiletlər,düşüncə sahibi olan (Homo Sapiəns) insandan , 30.000 il e.ö-yə ayiddir. Bu insana (Cro-Magnon) kromaniyon insanı da dəyilir. Elə bu zamandan bəri insan oğlu büyü və cadı ilə tanış olub və ilk olaraq ölülərini basdırarkən ,bir-sıra cadı və büyü törənlərilə ölüsünü basdırmağa başlar , buna görə ki o ölünün , ölümündən sonra başlanan həyatını onun üçün hazırlamış olsun.1 Əski daş dövründə türk soylu xalqların cadı , ovsun və büyü işləri ilə ilgili , cadukünlər , ovsuncular və büyücülər (Maqlar ,Qam-Şamanlar) bu konuda çalışarmışlar. Şamanlar və ilkin Maqlar ,özlərini heyvan qılığına salaraq ,bir-sıra cadı , ovsun və büyü rəqslərinə və oyunlarına başlarmışlar. Şamanların,Qamların və Maqların əsas çalışmaları , ovçuluq törəninin bir qismi kimi sayılırmış ,heyvanı ovlamaqdan öncə yaxalamaq və ya bu ovlanmış və öldürülmüş heyvanların ruhlarına oxşamaq və iltifat göstərmək idi. Zubin(=sapand) və süngü ilə yaralanmış heyvanların və ya hamilə (gəbə qalmış) heyvanların rəsmini mağaranın duvarlarında rəsm etmək ,ov və ovçuluq ovsununun və büyüsünün bir qısmı kimi sayılırmış, bu amaçla ki gələcəkdəki ovçuluqlarında və yaxud ova çıxmalarında, bol və firavan ovları olmuş olsun. Beləliklə büyücü (şaman,qaman ,Maq) üzünə maska vurarak,rəqsə və oyuna , oynamağa başlarmış və həmən oynayan şaman,qaman,Maq və yaxud büyücü ,daş dövrü (ovçuluq dövrü) insanlarının ilk tanrısı kimi də sayılırmış və onu Fransalı araştırıcı "Heyvanlar Tanrısı" adlandırır. 2 Amma ünlü və görkəmli Romaniyalı Şərqşünas,dinlər tarixçisi,etnograf,mifolog "Mircea Eliade",baxışını böylə açıqlayır və yazır ki “Şaman`ın (Qaman`ın) , heyvanların hərəkatını və səslərini yamsılaması,heyvan qılığında və kıyafətində olan yardımcı ruhları, öz kontroluna keçirtməkdir. Şaman (Qaman) bu işə və amaca ulaşmaq üçün , kəndisini heyvan qılığına və kıyafətinə çıxardır və bu iş üçün heyvanın müqavvasını və maskasını üzünə taxır. Bu iş`ilə o kəndisini heyvani və heyvansəl ruhuna çıxardır "danışır" və mahnı (ır) oxuyur (ırlayır) və ya uçur. Heyvan ya heyvansəl dili , şamanın təkcə gizli (sirrili və əsrarəngiz) dili ya ruhsal dilinin bir növüdür.Yardımcı ruhun heyvan qılığında çıxması və görsəlliyi və gizəmli (əsrarəngiz) dili ilə bu ruhla danışmaq və ya heyvan ruhunun hərəkətlər , oyunlar , rəqslər və maskalarla Şaman tərəfindən nümayış ətdirməsi , bunu bizə bildirib – çatdırmak istəyir ki Şaman (Qaman,Maq) ,insani şəraitini və keyfiyyətini tərk edə bilər və qıssa olaraq yəni kəndi istəyilə ölə bilər. Ən əski zamanlardan böylə düşünülürmüş ki heyvanların hamısı , ruhu başqa dünyayə yönəldib sürəkləyə bilər və ya heyvanlar , ölən kişinin yeni forması və şəkilidir. Heyvan dış (ma`vəra) aləminin insan ruhu`ilə ilişgisinin

və bağlılığının bəlgəsidir." 3  Skoçiyalı sosiyolojist  J.G.Frazer (1854-1941) öz tədqiqat və araştırmalarında , dinləri "insan tanıma" (insanşünaslıq) əsasında , dənəyib və açıklayıbdır. Onun şah əsəri "Altun Dal"ın bə`zi cildləri bu insan tanıma(=insanşünaslıq) baxışının çərçivəsinə və keyfiyyətinə dəlalət edir. Frazər böylə düşünür ki əkinçilik həyatı insanın dini ideologiyasına və dini şuarlarının əməl etməsinə tə`sir göstərir və bu tə`siri də əkdiyi taxılın illik ölüb-dirilmə dövrünə bağlayıb və sonuclandırırdı. Əkinçi görürdü ki taxıl və əkdiyi əkin və tarla yazda dirilib və qışda ölür. Frazer, "Hegel"in nəzəriyəsinə ta`be olaraq , belə qənaətə gəlir ki bəşər həyatında ilk yaranan gündən bəri , din dövründən (Agə of Religion) öncə , ilk olaraq "büyü" və "cadı" (ovsun) dövrünü "(Agə of Magic) yaşayıb və keçirtdirib və bu bəşər ilk olaraq onun peşində və ardında idi ki büyü,cadı və ovsun törənləri ilə , dünya kainatının gizli və əsrarəngiz quvvələrinin arxasına və pərdə arxasına girmiş ola , amma sonra çalışıb onlara dua(duva) , tapınaq(=mə`bəd) tikdirərək və qurbanlıqlar kəsərək , onların iyiliyini,yaxşılığını , mərhəmətini , toxunmamazlığını qazanmış olalar. 4 Bununla belə sonuca tuş gəlirik ki insan oğlunun ilk din və inancı daş dövründə , cadı ,ovsun , büyü və büyücülüklə başlanır. Daş dövrü insanın təməli, əsas bu üç mövzu imiş : doğum , ölüm  və yemək-azuqa (qış azuqası) hazırlamaq`imiş. Daş dövrünün ovçu insanı, belə inanırdı ki cadı ,ovsun və büyü araçlarının yardımı ilə bədən və tən gücünü artırıb və gücləndirə bilər və ovçuluk həyatında başarılı ola bilər. Mağaralardakı rəsimlər bu cadı , ovsun və büyü araçlarını göstərməkdədir. Demək bu mağaradakı rəsimlər , ilk dinin və inancın əlamətləri sayılır və bu din və inanc ovsun , cadı və büyü ilə yoğrulmuşdur. Bu mağaralardan örnəyin "üç qardaş" adlı mağara, Fransanın "Ariege" vilayətində və "Lasko" (Lascaux) mağarası Fransanın günəy batısında yerləşən "dordoni" vilayətidir.5

# ilkin büyücülər,bəşəriyyətin ilk tanrıları sayılır :

Fransanın Trova- Frer (Trois-Freres) Arij(Ariege) bölgəsində yerləşmiş və Roc (şarente bölgəsində yerləşmiş) mağaralarındakı rəsimlər və naxışlar əski daş dövrünün ovçuluk və nəsil artımı büyüsünə və ovsununa ayiddir və mifik , mit heyvanlarını göstərir , bəlkəm də həqiqi , gərçək heyvanları bu rəsimlərdə göstərir ki bir az-çox formaları dəyişilib. Çünki eyni heyvanların öz gərçək rəsmini çəkmiş olsaydılar , o heyvanların kin və duşmançılığını insan əleyhinə qaldırmış halda göstərmiş olardılar.Bu rəsmlərdəki şəkillər və həykəlciklər (=figurlar), zahirdə rəqs

və oyun etməkdədirlər və etnografların anlayışlarına görə , mümkündür , kıyafət və qılıqları dəyişilmiş büyücülər və sehircilər olmuş olalar. Bu əsasda bir başqa rəsm bir başqa mağaranın duvarında (Trois-Freres) qazılıb və həkk olunub. Bu rəsmdə öküz ya buğa qulaqlı,keyik buynuzlu və at quyruqlu bir saqqallı ərkək kişi və üç keçi başlı kişi Fransanın Tijasında Dordon ətrafında yerləşmiş Mege mağarasında qazılıb həkk olunub.Bunları Tanrı ya büyücü sanmaq olar və elə görünür Fransanın Lamadlenində çəkilmiş və həkk olunmuş peykər,maska taxmış bir büyücüdür və həmən Lamadlendə bir qadın peykəri(=figuru)də rəsm olunub və belə bəlli olunur ki cinsiyyətindən (ərkək-dişiliyindən) asılı olmayaraq , əski daş dövründə hər iki cinsiyyətdən, yə`ni həm ərkək , həmi də dişi büyücülər var imiş. Bu iki cinsdən (ərkək və dişi) qazılmış rəsimləri bir-birindən fərqli tanrı saymış olsaq , bu sonuca çatmaq olur ki bu dəyişilmiş büyücülük kıyafət və görünüş ,belə tanrılara inam yaranmaqda, yararlı olmuşdur.Büyücünün gücü və qudrəti,onun kıyafət və görönüşünün dəyişmə keyfiyyətindən asılı idi. Ovsuncunun və büyücünün , büyü gücü və qudrəti və onun görünüşü vəziyətilə , doğal olaraq , bir-birisi ilə tam bağlı və ilişkidə imiş. Büyücünün insan və heyvan rolu , eyni zamanda  doğal olaraq insanların düşüncəsində bir-sıra tanrıların yaranmasına səbəb oldu. Beləliklə tanrı da bu güclərin sahibi və iyəsi oldu və büyücü də öz büyücülük işlərində bir həddə qədər tanrının təcəssümü və bəlgəsi sayıldı. Bu mağaralarda çəkilmiş və qazılmış rəsmlərdəki pəykərlər(=figurlar), tanrıların ola və ya büyücülərin rəsmi olmuş ola , o əski daş dövrü insanların dinsəl inanclarının bəlgəsi (simvolu) və kanıtıdır.[6]

Əski daş dövründə insan, türlü-türlü büyülərə və ovsunlara sığınırmış , o sıradan yamsıma büyüsü , heyvanların və bitgilərin nəsil və soy artımı , bolluq büyüsü , heyvanların rəsmlərində tən ya bədən üzvlərini qırmaq və yaralamaq büyüsü və eyni halda öz duşmanlarının ovsunlamaq və yararsız halə gətirmək üçün , hərb və savaş büyüsü , aşk və sevgi büyüsünü saymaq olar. Əski daş dövründə , insan yeyəcək ərzaq və azuqasını ,ov və ovlamaqdan əldə edirmiş və büyünün rolu ,ov və ovlamaq işini başarı ilə garant etmə sayılırmış. Burada yamsılama büyüsündən və heyvan qılığına və kıyafətinə girmə ilə bu büyü, yerinə yətirilirmiş. Eyni halda başqa bir büyüdən də yararlanırmışlar və bu büyü tədavi və müalicə üçün imiş . Bu büyüdə heyvanın ya canlının rəsmi və heykəli (figuru) üzərində hər nə yapılırmış ,sanki həmən heyvan ya canlının həqiqi tənində (bədənində ya cismində) və bədənin üzərində yapırmışlar kimi,tə`sir edirmiş. Bir çox rəsmlər və gildən qayırılmış həykəlciklər və figurlar, Fransanın Hat-Garun bölgəsindəki Montspan mağarasından qırıq və deşilmiş halda bulunur ki o dövrün adamları bu işlə böylə

sanırdılar ki həqiqi və rəal heyvanları və canlıları yaralayırmışlar.[7] Büyü , ovsun və muskanın kökü ilkin Şamanism ya Qamanismə çatır. Şamanism xəlsənin (= Çalınıklık , yuxu ilə oyanıqlıq halında sufiyə gələn hal) (ingiliscə : Ecstasy) əski fənnlərindən birisi və eyni halda irfan , büyücülük və din`in anlamını daşıyan bir söz və termindir. Maqlar,Qamlar və Şamanlar ilkin insan kütlələrində bir sıra özəl insanlarıymışlar ki dini və büyü quvvə və güclərinə malik idilər.[8] Hər bir Qam ya Şaman şüphəsiz bir büyücü və təbib`iymiş . O, bütün tibb dokturları kimi xəstələri tədavi və müalicə edirmiş və büyücülər kimi büyücülük də edərmiş və bunlardan başqa o ruhları yeraltı dünyayə yönəldən imiş və yeri gəldikdə Moğ (kahin) , arif və şair də olurdu. O, insan ruhlarının qoruyucusu və uzmanı sayılırmış. Şamanism Sibir və orta asya`ya ayit bir dini və inançsəl pədidə və hadisədir. Şamanlara türk xalqları altayca “Qam” , “Kam” və Moğolca “Kami” deyiblər. Şaman ya Qam , xəlsənin(= Çalınıklık , yuxu ilə oyanıqlıq halında sufiyə gələn hal)(ingiliscə : Ecstasy) böyük ustadı və uzmanı sayılırmış. [9]

Büyü , cadı və sehir əski Məzopotamiya yaşam və həyatının təbii və normal bir qısmı sayılırmış. O dünyada ki, hər kimsə bir növü doğa üstü devlərin(dəmonların) cin və firiştələrin ,zərər verici Tanrıların və Tanrıçaların və sehirbaz insanların hədə-qorxusundayımış , və tabular (taboos) və and içmələr onu öz çevrəsi içinə almışdı və fala baxanlar keçmişi , hali və gələcəyi zincir kimi bir-birinə bağlayırdılar , zərərsiz büyü – cadı araçlarından yararlanmaq , dinçlik və sağlamlığı yaratmaq üçün , sıradan bir iş sayılırdı . Bununla bu sehir və ovsun (çirkin və zərərli büyü) sosiyal tə`əssüratına görə , bir şeytani və zərər vərici iş sayılırmış. Büyü və cadı-cəmbəldən aşağıda sayılan məqamlarda yararlanılırdı : Devləri,cinləri,firiştələri və zərər verici Tanrıları və Tanrıçaları qovmaq və onları zərərsizləşdirmə və onlara zəfər çalmaq , özəl suç sayılan əməllərin tə`sirlərini batil etmək , öngörülü hadisələr , olaylar və bəlaların tə`sirini zərərsiz hala salmaq , cinsəl gücünün artırılması , bir mə`şuq və sevgilinin sevgisini və iltifatını mə`şuquna yönəltmək , duşman və zərər verən büyücülər , sehirbazlar və ovsuncuların kötülüklərini yararsız hala salmaq və ...

Genəlliklə muskada(duvada) çəkilən işarələr və yazılar və çizgilər,həmən sehirli və büyülü çizgilər və yazılardı ki öncə yuxarıda saydıqlarımız qara quvvələr və güçlər və qara devləri (demonları) qaçırtma və yenilməyə uğratma və onların sehirli quvvələrini və güclərini yararsız hala salmaq üçün, işarələr və çizgilərdir. Bu əməllər bir sıra özəl dünya görüşləri əsasında olunurdu. Örnəyin bir grup devlər

(=demonlar)türlü-türlü şərarətlər və zərərlər və xəstəliklərin törənməsinə səbəb olurdular ki insan istəmedən tabulara qatlanmasın və bir sıra suçlu əməllərə əl atsın və suç işləsin. Başqa insanlar da sehir-cadı və büyü işlətməyə qadir idilər və öngörülük, cadı və büyülərlə, sehirli dev və sehirli quvvələrin gələcəkdəki zərər və ziyanlarını yararsız edirdilər. Açıq və aydındır ki sehir,cadı,büyü və muska(duva yazma),həkimlik və öngörü və qeyb deməklə sıx bağlı iymış və gah onları bir-birindən ayird etmə,ən çətin işdir.Həkimçilik elmi,cərrahlık, ot və bitgilərlə dərman və tədavi,əski zamanlarda variymış və bununla sehir, cadı və muska da (bu səbəbə görə ki xəstəliklər və mərəzlərin çoxunu devlər və sehirli quvvələr yaradır) bitgilərdən öz alma (suyunu və arağını çəkmək),mərhəm ,imalə, toxtadıcı yağlarla yanaşı işlənilirdi. Bu əməllər "Aşipu" adını daşıyan adamın əli`lə olunurdu.
O zaman "Asu" adlanan bir profsiyonal adam da həkimçilik və tibabət edərmiş. Qeybdən və gələcəkdən demək və öngörülük etmə işini də bir öngörücü ya qeybdən deyən görərmiş amma kötü falların şərrini və kötülüyünü dəf etmək üçün "aşipu"nun olmağı lazim,zaruri və vacib sayılırmış.Çox ehtimal ki "Aşipu" kahin və din xadimliyinin bir bölümü kimi,mə`bəd ya tapınacağa (=pərəstişgah,ibadət yeri) bağlı olan bir bölməsi imiş.Muska,sehir və cadı ,Babil uygarlığı dövründə ən yüksək dövrünü yaşamada olubdur.Babillilər,Şümer,Akkad,İlam və Hürri dillərində olan ovsun və tilsimləri (gah qarmaqarışıq,mürəkkəb və dolaşıq və hərdən də çox az olurdu ki mükəmməl formada olsun) ,vird və anlaşılmaz sözləri, muska formasında yazıb , hastanın boynundan asarmışlar və gah muskanı evin duvarından da asarmışlar."Kamus-i Türki" əsərinin müəllifi Şəmsəddin Sami, büyü sözünün anlamını belə yazır:"Büyü sözü Bükü sözündən alınmadır."Bükü":1-bükmə , bağlama , ukdə , düğün  2- sehir , ovsun , büyü . və sonra yazır :Bükü yapmak = sehir yapmak / Büyü bozan= sehiri iptal etmək 10 / Büyücü = sehirbaz , arpağcı 11 Hər xəstəliyin özünə özəl formada və deyimdə,vird və duası var idi ki cadıçı (= ovsuncu ,büyücü) və ya xəstə onları dilə gətirirmiş və oxurmuş. Cadıçılar və ovsuncular , türlü-türlü vird və duaları bilirmişlər və bunların ən önəmlilərini seçib boyundan asarmışlar. Onlar bir-sıra heykəllər də, şəytan və sehirli quvvələri qovmaq və dəf etmək üçün,düzəldirmişlər.Ən əski ovsun və muska yazısı ki bizə çatıb , eradan əvvəl  2400 ilə ayitdir. Bu ovsunların bir sırası ilan və əqrəb çalınmasından qorunma , çocuğun doğulmasına yardım üçündür və bunlar bunu göstərir ki ən əski dövrlərdən (Babillilərdən çox öncedən) , cadı , tilsim , ovsun və muska variymış və öz ardıcıl yolunu davam etməkdəyimiş. Bəllidir ki tilsimlər təkər-təkər Şümerlərlə bağlıdır və hər bir tilsim özünə özəl sorumluluğu variymış

və hər biri , bir dev(demon) ya sehirli quvvəni yararsız halə gətirmə üçün iymiş. Beləliklə belə əldə olunur ki cadı , muska və ovsun ədəbiyyatı ən əski dövrlərdən şifahi olaraq , sonrakı devrlərə və xalqlara çatıb və sonra xətt və yazı çıxandan sonra məktublaşıbdı. "Jermi Black" və "Antoni Green" yazırlar ki o dövrdə 4 türlü ovsunları ayird etmək olar : Birinci qism o ovsunlardır ki sahir (=sehirbaz) ya ovsuncu bir-başa və üz-üzə sehirli sözləri ,devlərə(demonlara) və qorxunc və zərər verici güclərə deyib və oxuyurlar. Bu halda sahir (sehirçi /sehirbaz) özünü azarsız və zərərsiz büyülərlə bağlı olan tanrıların xələfi (canişini) və elçisi kimi devlərə və zərər verici güclərə tanıtdırır. Bu türlü ovsunlar bu sözlərlə bitir : "And olsun göyə", "And olsun yər-altı dünyayə" . İkinci grup ovsunlar , devlər , firiştələr ,cinlər və pərilər əli`lə çarpılmış və məftun olanlar üçündür. Başlanışda devləri (demonları) , firiştələr,cinlər və pəriləri vəsf edib tə`rifləyib sonra onları qovub dəf edir və bununla da onların verə biləcək bəlalarını və zərərlərini dəf ədir.

Üçüncü türlü(növlü) büyü və ovsunda, devləri,cinləri,firiştələri , pəriləri və onların gördükləri işləri vəsf və ta`rif edərək , başlanır və dördüncü türlü (növlü) ovsunda devləri ya azarsız və zərərsiz büyü tanrılarını xitab etmedən , ovsun və büyü törənində muskalarda işlənən şəylərin tapınması öndə durur. Bu büyü və ovsun araçları və şeyləri və yaxud cahazları, sehirci və büyücü tərəfindən ovsunlanarsa , o zaman büyü və ovsun işində çox yararlı və tə`sir edici ola bilər. Bu cadı və ovsun araçları çox  a`di və sıradan biri əşyadır. Misal üçün : ocaq , manqal (içində od közü yanaraq) , soğan , xurma lifləri və salxımları , həsir , bir yumak yün , keçi kürkü , qırmızıya boyanmış yün , un, mə`bəd və tapınağın əncir ağacının salxımları , qəmişlər (sazlar) ,duz , sidr ya dağ sərvi ağacları , arumatik ağaç .

Ən mükəmməl və mürəkkəb büyü arxivi və toplumları Babildə variymış və onların məzmunu və özləri də indiyə qədər qalmaqdadır və “şurpu” (= yakmak) adlanırdı. Bu büyü (şurpu) o zaman olunurdu ki sehirciyə müraciət edən bilmirdi ki hansı suç ya qəflətə görə , tanrılara əhanət edib və dünyanın düzənini pozubdur . Xəstə iztirablı , uykusuz və güçsüz halda sehirciyə müraciət edirdi. Sehirci ya büyücü bu büyü və sehir prosesində (törənlərdə) tüm suçları ad aparır . Yandırıb-yaxma bu törənin bir qısmıdır ki xəstə bir soğanı qabığını soyaraq ,oda (atəşə) atır və bir də xurmanı liflərindən qopardıb odun içinə atır və bu sürədə o gərəkən ovsun və büyüləri oxuyur. Sonda sehirci ya büyücü odu və eyni halda suçları söndürür. Amma Akkad ovsun və büyü törənlərinin həqiqi özəyi və iç yüzü tam başqadır. Bu akkad ovsunu törənlərinə “Namburbu” deyilirmiş və bununla fal açmalarla (qeyb

deyənlərin dediyilə) bəlirlənən gələcəkdəki şərrlərdən və zərərlərdən qorunulurdu ya onları dəf edirdilər. “Namburbu” beş qanun və yasadan ibarət törənlər idi. İlk olaraq xəstənin çevrəsinə bir dairə cızaraq onu dış dünyasından ayırmaqdır və bu dairəyə , büyü dairəsi deyirmişlər , sonra xəstəni yuyundurub yixalayıb təmizləyirmişlər və tapınağın (mə`bədin) əncir ağacından da , onu qusl və yıxamaq və buxurlamaq və buxur vermək üçün yararlanırmışlar. Sonra bir keçini qurban kəsərmişlər və bir mis ya paxırdan qayırılmış çangı (zing / zingirov) səsləndirib və davula (böyük toy , böyük nağara) çalarmışlar. Ondan sonra yeyilən yeməklərdən və misklərdən (xoş qoxulu ətirlərdən), tanrılara və tanrı ırmağına , peşkeş olunardı. Bu törənin əsas önəmli bölümləri , şərri ,bəlanı,zərər və kötülüyü dəf etməkdir. Bunun üçün özəl muskalar (= duvalar) yazılıb bükülürdü ki xəstə gərəkdir onu yerinə yetirmək üçün , çaba göstərə . Məsəla bir boyunbağını yeddi (7) gün boynundan asmalıdır ya sarımsaq yeməkdən imtina etməli idi. Bal mumundan , xəmirdən , qır ya çamurdan (palçıqdan) və saxsıdan heykəlciklər (figurlar) düzəltmək və sonra onları oda atıb yandırmaq və  əritməli idi. Büyüləri və ovsunları gecə tanrılarına , ulduzlara , Kimilə (=od tanrısına) , ya başqa tanrılara xitab e`mal edirdilər. Büyücülərin bu gördüyü qarmaqarışıq əməlləri (işləri) varlı və zənginlərə olurmuş. Çünki inanılır deyil ki büyücülər bacarıqlıqlarını və vaxtlarını pulsuz və bedava birisi üçün xərcləmiş olalar. Büyücülərin səmavi falları özəl olaraq Şah ya Sultan üçün iymiş. Örnəyin ay tutulmadan gələ bilən şərrləri ,bəlaları və kötülükləri dəf etmək üçün görülən büyü əməlləri və işlərini işarə etmək olar. Ölkənin bütün sosyal sinifləri və bölmələri , büyü işləri və törənlərini və inanclarını , normal və doğal sayıb , onları qəbul edirmişlər.12

Büyü və ovsun əməllərində və törənlərində işlənən araçlardan birisi də beş pərli (güşəli) möhürdür. Beş pərli möhür : beş pərin çeşitli türləri , büyücülər tərəfindən işlənilirdi ki onların güc və qüdrətini əməl etdirir. Sevgi , aşkın və cinləri dəf etmə bəş pərlərdə o sıradandır. Büyü kitablarında ,beş pər ya beş güşə, o büyü möhürünə deyilir ki bir keçi dərisinə rəsm olurmuş və ya bahalı metallar (altun ya gümüş) üzərində qazılırmış. Üç bucaq, dörd bucaq , beş pər(güşə) , altı pər , o möhürün dairəsi içində rəsm olurmuş. İbri hərflərlə latin sözləri bu həndəsə şəklilin üzərində rəsm olurmuş. Beş pərli möhür, deprəm (=zəlzələ) ,aşk və ölümə səbəb ola bilər və türlü-türlü sehir və büyüləri yarada bilər. Beş güşəli möhür , gizli güclərin bəlgəsi imiş və o gücləri öz kəndi ixtiyarına alıb və onları hərəkətə gətirirmiş.13 Türk soylu xalqlar içində büyücülər (Şamanlar /Qamanlar) büyü ayin və törənlərini “ox”

və “yay”la da keçirərmişlər . Ox`un qutsallığına inam türk dilli xalqların , o sıradan Azərbaycan xalqının soy kökündə duranların mifologiyasında , başlıca inam idi. Şamanlar/Qamanlar uzun yüz illiklər boyu ,ox və yay`la ayin və törənlərini keçirərmişlər. L.P. Putapov yazır ki əski Qam/Şamanlar, büyü oyunlarını (rəqsləri) Davul və yay-ox`la keçirərmişlər. 14 Büyücülər (Qamlar/Şamanlar) insanların duşmanlarını və kötü ruhları , ox`la qovub – uzaqlaşdırıb ya məhv edərmişlər.15 Ox və yay`la ayin və törən keçirmənin və onun kötüyü qovmasının başlıca səbəbi o idi ki ox günəşin , onun şuasının və yay isə göyün (göy qübbəsinin) bəlgəsi imiş.16 Altay türklərinin şəmən (şaman) törənlərində , şaman xəlsəli (= Çalınıklık , uyku ilə uyanıklık halində sofiyə gələn hal) (ingiliscə : Ecstasy) səfərinə başlamadan “Cacık kan” (=Yayik xan) dəniz tanrısını , kayra kan , Bay Ulgən və qızları və başqa mifik mifləri yardıma çağırır.17 Qamlar/Şamanlar ilkin çağlarda ox-yay`la və sonralar onu davul`la (böyük toy ya nağara) dəyişib oyun və rəqs keçirmələri , onların görüşlərindəki dəyişiliklə bağlıdır. İlk çağlarda Qam/Şaman, ox`un və yay`ın yardımına sığınırdı. Sonra buraya daha bir tanrısəl güc və quvvə ilə bağlı anlayışı, fələkin çarxının dövranını , yə`ni yaşayışın gedişini nizama və düzənə salanı , kainatda əvəzlənmə və dəyişikliyi yaradanı da artırmışdı. Dövranın fırlanmasını , çarxın əbədiliyini- yaşarılığını gözə çarpdırmaq üçün davul`dan – dəf`dən (dairə,qoval) yararlanmışlar. Deməli , davul fələkin dövranı və çarxının bəlgəsi kimi düşünülürmüş. Görünür buna görə də Qaman / Şaman , oyun keçirtdiyi davulun üz qabığına bütün kainatı daxil etmişdir. Davulun üzərində yeraltı, yerüstü dünya,günəş,dünya(həyat) ağacı və başqalarını yerləşdirilmişdir. 18 Yeri gəlmişkən bunu da artırmalıyıq ki dünya ağacı ,türk soylu yakutlar mifolojiyasında “Ğan”/”Ğanı” adlanır və 8 dalı var.19 Yalnız Qam / Şaman davullarında (yay-ox`la birgə) deyil , onların oyun keçirtdikləri geyimlərinin (kıyafətlərinin) kürəklərinə 10 ədəd yay və ya ox tikərmişlər. 20 Yay-ox`un tanrısal güclərlə , mifik düşüncə ilə bağlılığı göstərən başqa bir əski törən və oyunu xatırlayak. L.P.Putapov`un araştırmasına görə Qam/Şamanlar, oyunu (rəqsi) eləcə də büyücülər (ara-sıra Qamlar büyücülük də edərmişlər), büyü - cadı törənlərini ox – yay`la keçirirmişlər. 21 “Saqalayev” yazır : sonralar Altaylılar dəf`lə (=dairə yaxud qoval ilə) də büyü və cadı edərmişlər. 22 Cığatay – əski özbək büyücüləri də yay-ox`la büyü edərmişlər. 23 Güya öncədən üz vərəcək və olacak olay`ı xəbər verdiklərindən , onlara “Yayıcı” (yay+ ıcı) deyirmişlər. 24 Əski türk soylu insan inanmışdır ki ox insanı kötü ruhdan qoruyur. Çünki günəş şərri , kötülüyü qovur , ox- günəşin şuası da günəşlə bağlı olduğundan, bu mifik səciyyə və dəyər ona da

verilmişdir. Türk xalqlarından sayılan Şor`lar [25], Yakut`lar [26], kızıl`lar, [27] yeni doğulmuş körpəni kötü ruhlardan qorumaq üçün , başının üstünə ox-yay asarmışlar. Xakas`lar , Kaçin`lar qumaşdan (bəzdən) Umay Ana  tikib və yanına ox-yay qoyarmışlar.[28] Qoruyan Umay tanrıçasına ayid imiş. Sayan-Altay`larda ox-yay qadın tanrıçası ilə bağlıdır. [29] Bu gətirilən nədənlərdən və açıqlamalardan görünür ki , ox-yay başlıca olaraq çocuqlar və qadınlarla və çocuqları qoruyan Umay ilahəsi ilə ilişkidədir.

Duva və vird oxumaq Şumerlər zamanında da var imiş. Dudu adlı katibin (Lagaş şəhərində e.ö 2350 də yaşayırmış) heykəlciyi tapılıb ki duva və vird oxuma halindədir. Bu katib öz heykəlini “Ningirsu”ya , Lagaş şəhərinin tanrısına sunmuşdur. Bu heykəl , indilikdə Bağdad muzəyində saxlanılır.[30]

Bir dörd sutunlu tablet (lövh) ki nisbətən salim qalıb və İstanbulun eski şark muzəyində saxlanılır , Nippurdan tapılmış ki e.ö 1750 ildə yazılıb və bu gil lövhdə Ninisinnə tanrıçasının tapınması (pərəstişi) haqqındadır. Ninisinnə kutsal qanunların ya kutsal tədavi və dərman(=müalicə) və xəstəliklərin xilqət və yaradılışdan öncə tədavi və müalicəsinin sorumlusudur. Bu qanunları Enki (bütün “mi”lərin sorumlusu) , ona veribdir. O bu qanunları , oğlu Domuziyə öyrədir. Bu duanın mətnində  xəstəlikləri şeytanlara , sehirli devlərə (demonlara) nisbət vərilir , bu baxımdan o xəstəliklərin dərmanı və tədavisi, sehir, büyü və cadı ilə mümkündür. Edvard Şiyera bu mətni “Sümer dinsəl mətnləri” adlı əsərində yayımlamışdır.[31]  Gilgəmiş , Enkido və yer-altı dünyası, Şikago  universitəsinin Şərqşünaslıq qurumunun çıxartdığı “Asuriya araştırmalar jurnalı”nın 8-ci nümrəsində “Gilgəmiş və Hulupu ağacı” adlı Sumer əfsanəsində, çap olunubdur. Bu mənzumə 27 sətirlik önyazı ilə başlır ki bu önyazının mövzusu , dəstanın asli ilə heç bir ilgisi və əlaqəsi yoxdur. Birinci 13 sətir , Şümerlərin dünya yaradılışı haqqında düşüncələrini açıqlayır və qalan 14 sətiri də “Enki” və “Kur” arasında gedən döyüş və savaşdan söz açır və ondan sonra nağılın özü böylə başlanır : Bir zamanlar Fırat çayı sahilinə əkilmiş və onun suyu ilə bəslənən bir “huluppu” ağacına (bəlki də söyüt ağacına) Güney yeli vəhşicə saldırdı və ağac Fıratın sularına gömüldü. Oradan geçməkdə olan tanrıça İnanna ağacı alıb özü Uruk`a gətirdi və onu kutsal baxçasına dikəltdi. Ona minbir özənlə baxdı , çünki ağac böyüdüyü zaman əlvar və taxtasından özü üçün bir səndəli  və sedir yapmayı öz zehnində və ürəyində tərrahlırdı . İllər keçdi . Ağac olgunlaşdı və böyüdü. Amma İnanna ağacı kəsmək istədiyində bunun heç də kolay olmadığını anladı , çünkü

ağacın dibinə büyü nədir bilməyən “çəkiciliktən (ovsundan) nəsibini almamış” bir ilan yuva salmışdı , təpəsinə qorxunc "İmdugud" quşu yavrusunu qoymuş , dallarına da "vampir Lilith" evini qurmuşdu. Hər zaman şən , gülər yüzlü olan İnanna bunu görüncə acı gözyaşlarını tökdü... 32

Ən əski devrlərdən bəri, moğlar ya maqlar (türk din xadimləri) büyü , cadı , sehir , ovsun və tədavi`yə (müalicəyə) bağlanıblar və elə bu səbəbə görədir ki avropa dillərində də “mog” ya “mag” adı, cadı , büyü , sehir və ovsun anlamlarını daşıyır və bu anlamlardan da türlü-türlü lüğət və sözlər çıxarılıbdır. Əski uygarlıqlarda da , moğ və mag adı sehir , ovsun və büyünü xatırladırmış və bunları büyü və ovsun iyələri bilirmişlər. Əski Yunan yazarı “Dino” (e.ö 350 – də yaşırmış) , əski türk din və inanclarından sayılan Zərtüşt dinində də ,büyü və ovsundan söz açır və xatırladır ki Avesta kitabında “Yatu” sözü işlənibdir ki bu da büyü , sehir , ovsun deməkdir və həmən bu kitabda “Yatu” adlı bir dev`dən (dəmon`dan)  ad aparılıb ki bu dev ,büyü və ovsun və sehirli şərarətlərin və zərərlərin qaynağı sayılır33

Yeri gəlmişkən gərəkdir bunu da qeyd edək ki Zərtüşt dinində və Avesta`da gələn bu “Yatu” (=büyü, sehir , ovsun) sözü də, bizə görə həmən əski türklərin işlətdiyi “Yədə”, “Yət”, “Yat”, “Yad” sözündən alınma və tutulma sözdür ki bu dində və Avesta`da qeyd olunub. Kaşgarlı Mahmud , Divan`i lüğat el-Türk`də ,“Yət”/Yat / Yad daşı haqqında belə yazır : Öncəbilənlər (Şamanlar) və kahinlərin, özəl daşlarla yel , yağmur və qar yağdırmaqlarına “Yat” deyilir. Bu iş bunların arasında çox tanınmış və bəlli bir işdir və mən Yəğma`da onu gözümlə gördüm ki bu daş`la üz vərmiş bir yanqını , söndürdülər. Böylə ki yay`da qar yağdı və ulu tanrının buyuruğu ilə mənim gözümün qarşısında ,odu söndürdü. 34

Paris milli kitabxanasında saxlanılan “Türküstan şi`ə nağılları toplumu” adlı əlyazmasında belə yazılıb : Əski zamanlar büyünü batil və yararsız etmək üçün “Ermya” (Armya) duasını oxuyurmuşlar və sonra üflərmişlər 35

Rəşidəddin Fəzlullah`ın  Camioltəvarixindən belə aydın olur ki əski zamanlar büyü və ovsundan döyüşlər və savaşlarda həmçinin qullanılırmış. Savaşlarda büyüdən və büyücülərdən yararlanarkən, düşman qoşunu və ordusu üzərinə sehirli və büyülü bulutlar , şiddətli yağmur yağdıran və qar yağdıran bulutlar göndərirmişlər və yayın qızmarında , qar yağdırırdılar və düşman qoşununu vəhşətə və qorxuya uğradırdılar və vəhşətə düşmüş qoşun qaçmağa üz qoyurmuş və eyni halda böylə

büyüləri əsərsiz , yararsız (batil) etmək üçün , yenə də büyüdən və büyücülərdən yararlanarmışlar.36

Ərəb və Məhəmməd Hənifə və ağ dəv`in öldürülməsi nağılında dəyilir : Büyücü “Həştər xan” güldü və dedi çox qan alıb ki bizim savaşımıza gəlib və o zaman bir büyüyə başladı. Az zaman keçməmişdi ki Mehrşah`ın ordusunun başı üstə , qar yağmağa başladı və hava çox şiddətli soyuq oldu.Öylə soyuqluq oldu ki heyvanlar və adamlar yarıcan və yarım həlaklığa üz qoydular.Mehrşah və onun çevrəsindəkilər bu halətdən çox çaşmış heyrətdə qaldılar. Sonda ki anladılar bu bir büyü və cadı`dı , Mehrşah özü və ordusu birlikdə “Ermya”(Armya) duasını oxumağa başladılar və o kəslərə ki bu duanı bilmirdilər , öyrətdilər və hamı birlikdə bu duanı oxudular və sonra üflürmüşlər və sonuc buki , bir qədər zaman keçdikdən sonra qarın yağmağı bitdi və günəş çıxdı.37

Bir başqa “ Barbar qalası və atəşətapan Zəmhər`in öldürülməsi” nağılında deyilir ki : Zəmhər anasını çağırır və ona islam ordusunun yürüşə keçib gəlməsini söylüyür. Ana deyir ki qəm yemə oğlum , bu gecə büyü və sehir`lə bu ordunu geri qaytararam və çoxunu həlak edərəm. Ana bunu deyib Zəmhər isə sevindi və odun önündə səcdə edib şükürlər qıldı. Gecə oldu və o qoca qadın bir büyülü məcməyi od ilə qaladı və bir az kül ona səpələdi və bir vird oxuyub , üflədi və sonra onu islam ordusuna sarı tulladı və bu od gök yüzünü bürüdü və bir bulut aşkar oldu . Bu bulut islam ordusu üzərinə , yağmağa başladı və çox heyrət gətirici soyuqluq oldu. Öylə ki islam ordusu düşərgədə xeymə və çadırlardan başlarını dışarıya çıxara bilmədi və o zaman Zəmhər 10,000 ordusu ilə islam ordusu üzərinə yürüşə keçir... 38

Əbureyhan Biruni “Əlcəmahir fi mə`rfət ul cəvahir”də böylə yazır : “ Razi Həvass adlı birisi kitabında deyibdir : Türklərin toprakında bir dağ ardı var ki ordu ya heyvan sürüsü oradan keçən zaman , atların və qoyunların tırnaklarını yün-güzəm`dən yapılmış bəzə , keçəyə tutarmışlar və onları astaca və ürkütmedən , sakit-sakit sürüb o keçitdən keçidərmişlər ki onların tırnakları o dağ keçidinin daşlarına toxunmasın. Çünki toxunarkən sehirli bulut göyə yüksələrmiş və göy üzünü tutarmış və o sehirli bulutdan bir yağmur yağmağa başlarmış ,öylə yağmur ki yağmuru tut , göyə çıx. Hər zaman istərsələr , bu daşlar`la yağmur yağdırırlar. Böylə ki bir ərkək kişi suya girib və bu dağ artının daşlarından birisini ağzında tutub və əlini tərpedərmiş və o zaman yağmur , yağmağa başlarmış. 39

M. Minəvi , Cəlaləddin Mınkburni`nin “Seyrəti” əsərinin Farsca tərcüməsinin ətək yazısında böylə yazır :  bu (qar və yağmur yağdırma) türk və moğol tayfalar və xalqlarının inancları və adətlərindəndir ki əski Fars və Ərəb tarixi və coğrafiya kitablarında qeyd olunub. Yaqut`un “Moəccim ul bələdan”ından , “Məcməl ul təvarix” və Coveyni`nin “Tarix`i cahanguşa”sından tutmuş ta “Mətlə ul sə`deyn” , “Rozət ul səfa” , “Həbib ul seyr” və hətta Fars sözlük və ədəbi kitablarında qeyd olunub. Bu büyücülük işi ilə özəl daşdan qar və yağmur yağdırmağa, moğol dilində “Cədə”(türkcə cadı) və əski türk dilində “Yay” deyirmişlər və o özəl daşa ki onu suda saxlayırdılar, “Cədə daşı” ya türkcə “Yədə daşı” və bu büyü işini görən kişiyə moğolca “Cədəçi” və türkcə “Yayçı”(Yaycı), "Yədəçi" dəyirmişlər. 40

James Frizer “Golden Bough”(Altun buynuz) kitabında, moğol büyücülərin hava və atmosferdə yaratdığı hava dəyişiliklərini özəl büyü araçlarıyla və cədə daşını söyüd ağacı dalına bağlayarak suya qoymaqla və ona büyü virdi və ovsun oxumaqla , qar və yağmur yağdırmaqları haqqında, çox geniş söz açıb və bilgilər veribdir.41

Əski zamanlarda türk xalqların maddi və mə`nəvi həyatında Qam-Şamanlar əsas rol oynamışlar. Qam əski türk dilində Şaman ,kahin, ruhani,həkim(tibb doktoru) , cadıçı ,büyücü , ovsuncu, fala baxan , taleh və baxta baxana deyirmişlər və çox hallarda şamanlık ayin və inancının papazları və həkimlərinə də deyirmişlər. Bu türk qamlarının “Qaman” adlanan uslub və usul`la xəstələri tədavi və ilac etmələrinə “Qamlamışı” deyilirmiş və Qaman, xəstələri tədavi və müalicə etmək üçün vird və dualardan , cadı və büyülərdən yararlanarmış və eyni halda ot və bitgi əczasından (=dava) və dərmanlarından da yararlanarmış . 42

Rəşidəddin Fəzlullah`ın Cami ul Təvarixində yazılır : Toloy xan buyurdu cədəmişi etsinlər ki simiya elminin bir növü sayılır. Bu büyüdə özəl bir daşı , suya qoyub və onu yıxalarsalar , yayın qızmarında da yel , soyuqluq , yağmur , qar , külək və boran olar. “Gənglı” ya “kanglı” birisi , ordunun içində varıymış ki bu “cədəmişi” yani böylə büyü işini çox yaxşı bilirdi. O ,Toloy xanın buyuruğuna görə,işə başladı. Toloy xan əmr etdi ki ordu adamlarının hamısı yağmurluk geyimlərini geysinlər və üç gəcə-gündüz at bəlindən enmədilər və Gənglı (kanglı) cədamişi (büyü) edirdi , elə oldu ki moğolların arxasından yağmur yağmağa başladı və son gündə qar`a döndü. Bu qar`a , külək , soyuq yel-duman və boran da artırlandı və Xıtay ordusu yay`ın istisində , bu soyuqluq və qar-boranı (ki qışın ortasında da

görünməmişdi) görcək həmən, heyrətdə və mat qaldılar. Soyuq hava və qar küləyin və boranın şiddətindən hərəkət etmək mümkün deyil idi və Xıtay ordusu çarəsizlikdən çölün ortasında dayanıb otraq etdilər. Üç günə qədər tərpənmə və yürümək mümkün olmadı və dördüncü gündə , hələ də qar yağırdı. Toloy xan çün gördü kəndi ordusu tox və dincəlmişdir və orduya və atlara soyuqdan , qar-borandan bir zərər dəyməyib və eyni halda Xıtaylar soyuq havanın şiddətindən , qoyun sürüsü kimi başlarını bir-birinin quyruğuna qısıb-qoyub və qış havası geyimləri olmadığı üçün soyuqdan əsirlər və silahları da donubdur , Toloy xan orduya buyurdu "kurıga" (dairə) qursunlar və əskərlərin hamısı keçədən yapılmış kəpənəkləri əyinlərinə geysinlər. Toloy xan buyurdu ki savaş və döyüş , ad-san, şərəf hörmətini zillət və baş alçaqlıqdan qorumanın zamanı gəldi çatdı. Gərəkdir mərd kimi döyüşmək . Moğollar , aslanların maral və geyik sürüsünə apardığı yürüşü kimi , Xıtayların üzərinə hücüm apardılar və Xıtay ordusunun bir çoxunu qırıb aradan apardılar və bir sırası da dağılıb-səpələnib , dağlara üz qoydular və aradan qaçdılar və sonunda dağlarda həlak oldular.43

Bir başqa nağılda deyilir : "yolda anidən Oktay kaan vəfat etdi və elə söyləyirlər ki Kaan bir neçə gün öncədən kefsiz və halsız olub xəstə halda imiş. Toloy xan onun başı üstünə gəlib oturub və "Qaman" (Şaman) rəsmi(ayin) və törənləri üzrə büyü və ovsun oxumuş və Kaanın xəstəliyi , dərdi və ağrısını bir ağac taxtasından qayırılmış kasanın suyunda yuyub yıxalamışdı. Toloy xan qardaşına olan hədsiz və ölçüsüz məhabbətindən və sevgisindən dolayı, o həmən kasanı əlinə alıb və tanrıya yalvararaq üz tutub dedi:"Ey əbədi tanrım! sən bilirsən ki Oktay qardaşımın bu ölümcül hali , əyər günah və suçdan yanadırsa ,mən ondan çox suç etmişəm və əyər iyiliyi və yaxşı insan olduğu üçündür və bu üçün onu aparmaq istəyirsən, mən ondan da iyi və xeyirsevərəm , onu əff et və onun yerinə məni apar və öz hüzuruna çağır. Toloy xan bu sözləri deyib və o kasanın suyunu başa çəkib içdi. Oktay kaan xəstəlikdən qurtulub sağaldı və bir neçə gündən sonra Toloy xan xəstələnib və dünyasını dəyişdi. 44

Abdulqadir İnan "cədə" haqqında yazır : Cədə (cadə , cadı) yağmur daşının adıdır . Cədə daşı // Yədə daşı ki özəl ayin və törənlə suya qoymaqla , yağmur və qar yağmağa səbəb olurdu , əski türk xalqların inanclarından sayılırmış. "Cədə" sözü indi də türklərin dilində "cadı" formunda işlənir və Avesta dilində də "Yatu" , büyücü və ovsuncu anlamındadır. Əski türklərin dilində "cədəçi" o kəsə deyilirmiş ki cadı, büyü , ovsun ayin və törənlərini yerinə yetirirmiş və bir sıra türk dillərində

“Cədə” , “cadı” və “yay” formuna çıxıb. Cədə daşı ilə yapılan ayin və törənlərə “cədamişi” deyilirmiş. 45 Əski Yunan yazarı “Dino”nun büyü , sehir və ovsun hakkında nəzər və baxışları , Max Muller tərəfindən basılıb – yayılmış əsərlərinin beşinci bölümündə, qeyd olunub. Əski Yunan yazarı “Dino” , büyü , sehir və ovsun törənlərindən söz açarkən qeyd ədir ki “Mog” ya “Mag”lar , bir özəl bitginin kiçik və nazik dallarından yararlanarak və ona “Bərsəm” ya “Bərsom” dəyərək , büyü və büyücülük və sehircilik işlərində və öngörü işlərində bundan yararlanırmışlar.

Dino öz kitabının başqa bir yerində Midia (Mad) büyücülər və sehirbazları haqqında yazır ki , büyücülər və sehircilər diskə oxşar bir ağac ya krastə ilə , öngörülük yaparmışlar və öncədən , gələcəkdə olunan və baş verən hadisələrdən və olacaqlardan xəbər verərmişlər. 46

Əski Yunan yazarı “Strabo” da bu konudan yad edib və yazır ki Moğlar ya Maglar , qutsal dualar və büyü virdlərini oxuyarkən , “Bərsəm” adlanan özəl bitgi dallarını əldə tutub və tərpedərmişlər. 47

Əski yunanlıların baxışı açısından Moglar ya Maglar büyü və astranomidə işbilir sayılırmışlar. Moğ (Moq//Maq) sözü, ingiliz dilində “Magus” , və onun cəm forması “Magi”dir və sehir , ovsun , büyü sözüdə ingiliz dilində “Magic” , həmən bu “Magi” (Maq / Maqi) sözündən alınıb. 48

Azərgoşasp atəşgahı (od məbədi ya tapınağı), Moğ ya Maqların atəşgahı , Midyada (Mad ölkəsində) Urmu (Urmiya) gölünün güneyində yerləşmiş və təxt-i Süleyman adlanır. Bu yaxınlarda çoxlu tilsim “Bullae” tapılıb ki onların tarixi 400 – 425 illərə ayiddir.Bu “Bullae” tilsimlərin üzərində bu söz yazılıb :“Goşəsp” atəşgahının Moğpəti (Magu pəti) .“Bullae” kiçik meşin (göndən yapılmış) çantadır ki Rumilər tilsimi onun içinə qoyub və boyundan asarmışlar . 49

Poliniyus əski Yunan yazarı , yazır ki “Proconnesus” adası, büyücülər və sehirçilərin yurdu sayılırmış və dünyanın ən böyük büyücüsü və sehirçisi “Aristis” haqqında Yunan tarixçisi Herodot yazır 50 : "Aristis kəndi müridlərinin birisinin evində ölur . Mürid onun ölümünü bütün müridlərin hamısına e`lan edir və bildirır. Bir neçə vaxtdan sonra Aristis kəndisini “Syzicus”da öz yaxınlarına və tanışlarına zahir edib göstərir. Yeddi ildən sonra “Proconnesus”da yenidən zühur edib aşkara çıxır və bir şeir divanı “Arimaspi” adında yazır. Yenidən 350 ildən sonra

“Metapontus”da dirilmiş halda kəndisini zühur etdirib göstərir və Apollo mə`bədinin yanında bir tapınaq tikib və kəndi heykəlini (büstunu) orada qoyub dikəldir. Bu adamın haqqında başqa Yunan yazarı “Strabo” da rivayətlər nağıl edibdir 51 və yazır ki bu adam dünyanın ən böyük büyücüsü və sehircisi sayılır və şeir divanının adı “Arimaspian- epos”dur və bə`zi yazarların dediyinə görə , bu adam Hommer`in xocası və öyrətməni olub. Nəhayət bu ki “Proconnesus” büyücülərin , sehircilərin və ovsuncuların yiğıncaq və toplum yeri olmuşdur. 52

Əski türklərdə büyücülük , ovsun və öngörülük , kök tutmuş dinsəl inamları və inancları, kəndi həyatını davam etdirməkdə imiş və bə`zi türk boyları və tayfalarının adı da (etnonimi) bu sıra inamlardan və bu kimi peşələrlə ilgili qaynaqlanaraq , etnonimləri yaratmışdır. O sıradan biz “Mağ”/”Maq” tayfasını və “Ayrim” tayfasını da ad apara bilərik. “Ayrim”lar ən əski türk tayfası və boylardan birisi sayılır. Ayrım Azərbaycan qəbilə birləşməsi haqqında türlü xalq söz açımları vardır , amma ən qane edici və ağıla batan anlamı bu türk qəbilə və tayfasının adı haqqında açıxlamanı ,Azərbaycan mifologu və tarixçisi “Mir Əli Səyyidov” qələmə alır və yazır :"Ayrım , əski türk soy və qəbilə birləşməsi etnosun adı, “Ay” və “Rim” sözlərinin birləşməsindən yaranıb. “Ay” türk sözü, “tanrısəl , tanrı , səmavi, ilahi, müqəddəs , göydən enmə , qutsal “ anlamındadır . Adın ikinci bölümü yə`ni “Rim” isə , qazan , koybal, lebed, qırqız , altay , teleut , şor , sakay“ türk dillərində ,“öncədən xəbər verən”,“öncədən xeyri-şəri bilən” , “peyğambərlik” deməkdir. “Rim” sözündən türk xalqlarında “Rimçi” və “Rimçilik” sözləri də yaranıbdır. Hamısı “iyi və xoş xəbəri, gələn xoşbaxtlığı ,kötü ,bəd və yaman xəbəri , gələn uğursuzluğu xəbər vermək , ozan , bakşı və onların başçısı Dədə Qorqutu yada salır . M.Ə.Seyidov "Ayrım" sözü və adını türk soylu Sak`lar ya Saka`larla bağlayır.53 Azərbaycanlı alimin verdiyi izah və anlamlardan başqa, bunu da artırmalıyıq ki “Ay” sözü eyni halda tıpqı Dədə Qorqut kitabı “konuşan” ,"danışan", “söyləyən” deməkdir.Dədə Korkut kitabının girişində oxuyuruq “Korkut Ata Ayıtdı : burada “Ayıtdı” yəni “söylədi , hüşdarlık vermək , xəbər vermək” anlamındadır. Demək “Ay”ın türk dilində (özəlliklə oğuz türkcəsində) bir anlamı da (Seyidovun dediklərindən başqa) , söyləmək və xəbərdarlıq etməkdir. "Ayrım" sözü və etnonimi əslində türkcə “irim” sözü ilə bir kökdən ola bilər yə`ni Ayrım , İrim sözünün başqa fonetik variyantıdır , çünki “İrim” sözünün anlamı da bu fikri və ehtimalı gücləndirir , və bizi sandığımıza sürəkləyir. Şəmsəddin Sami

“İrim” sözünün anlamında yazır : İrim = irmək`dən . irmə , vüsul (çatma , nail olmaq , ulaşmak) – fal açma , təfə`ul , istikarə (istixarə) 54

Demək “Ayrim” türk tayfası , öz tayfa və etnosunun adını , öngörü və öncədən xəbər verən öz tayfa başçısı , tayfa böyükü və ağ saqqalı , tayfa baxşısı və ozanının şərəfinə , “Ayrim” qoyubdur . çox güman , bu tayfanın başçısı və lideri , öngörü hissinə malik birisi imiş və öncədən xəbər verən imiş.. Tastius`un dədiyinə görə Armini xalqı Frat ırmağı üçün at qurbanlıq edərmişlər və bu ırmağın dalğaları (ləpələri) və köpüğü ilə öngörülük edərmişlər. 55 Tarixçi “Agathenglus” , “Pelini” və “Plotark”ın dediklərinə görə Arminidə ən sevimli tanrı,tanrıça “Anahit” imiş və özəl aylar və günlər, günəşə və aya həsr olunmuşdur.Gezenfon “Anabayis”da işarə edir ki Arminilər günəşə , suya qurban kəsərmişlər.56 Tarixçi Agathenglus yazır ki günəş və nur,ışık tanrısı Mithra`nın(Misra`nın)Armininin Bagayarnik`ində tapınağı (=mə`bədi) var imiş. 57 Bunu da artırmalıyıq ki "Ayırım" adında “Ay” sözü əski türk dillərində (yuxarıda saydıklarımız anlamlardan başqa) “konuşmak, demək , bəyan etmək , söyləmək , və`z etmək” anlamlarında da gəlibdir.58 Bizə görə “İrim /Irım/Irm” (Rim /Rım) , vird və dua oxumaq , mızıldamakla boğunaq və yaxşı duyulmayan büyü sözləri sayılan “Arm” sözü, “Ayrım” tayfası adının ünlü hərflərsiz (saitsiz) yazılmış formasıdır. Çünki əski çivi (mıx) yazılarında bir çox arada gələn ünlü səslər (sözcüklər) və yumuşaq "y" , "ğ" kimi səslər düşüb yazılmayırdı. Örnəyin “Ayrım” adı yazılarkən ,”A”dan sonra yumuşaq “y” və “r”dan sonrakı “i” ünlü səs düşüb və “Arm” formasına keçibdir. Ayırım---->Arm. Turuxansk yakutları mifologiyasında “Ay”/”Ai” , yaradıcı , yaradan, tanrı anlamındadır.59 Azərbaycanda özəlliklə Güney Azərbaycanında “Ayrımı” , “Ayrımlı” adlı türk tayfa indi də öz həyatına davam etdirməkdədir. Bu əski türk tayfası Sehirli dənizin güney doğusunda yəni Van gölünün çevrəsində yerləşirmiş. Ayrım türk tayfasının bu yerləşdiyi və yurt salmış yerləri, öz etnos adları ilə bağlı olaraq , “Ayrımini” və yumuşaq “y” səsinin düşməsi ilə “Arımini” və sonda da qıssa (türk dilinə özəl olan) “I” sait səsinin düşməsilə və eyni halda Asur , Aramey , Fars , Babil, Yunan , Armeni ,İbri , Rum və başqa Hind-Avropalı dillərdə olmadığı üzündən , gil tabletlərdə , daş və kaya üzərində çivi yazılarda və lövhlərdə, kitablarda və başqa-başqa qaynaqlarda,mənbələrdə və özəlliklə də “Orartu” daş və qaya üstü çivi yazılarında, “ARMİNİ” formantını və adını almış və iyə durur və böyle də tarixdə tanınıb və hələ də tanınmaqdadır. Bu türk “Ayrım” tayfa və ölkəsinin adını ərəb coğrafiyaçıları və gəzginləri öz əsərlrində “Erməniyə”

kimi yazmışlar . Bu türk ölkəsi “Ermənіyə” və ya Orartular və əski Yunan yazarların dilicə desək, “Armini”, Ayrım türk tayfası və ölkəsi deməkdir. Hitt /Hett ,Manna,Midya(Mad), və Aşur imperiyaları zamanı həyat sürən bu ölkə, din xadimləri və din başçıları olan “Maq”ların əsas qaynağı və mərkəzi olub.Yəni maqlar dediyimiz din adamları,“Ayrım” türk tayfasından çıxıb bütün ölkələrə yayılan dinçilər və din xadimləri olmuş və Midya türkləri dövründə də, bu din başçılığı rolunu, türk dünyasında və başqa türk yurtlarında öz üzərilərinə götürmüş xalq olmuşdur və eləcə də bütün türk topraqlarına yayıldıqlarına görə,günü-gündən bu “Ayrım”(Armini,Ermənіyə) ölkəsi,nüfus və say baxımından azalaraq başqa yad xalq onun toprağına girmiş,yerləşərək, o türk tayfa və etnosun həm toprağına, ölkəsinə, həmdə adına, uygarlığına yiyələnərək, tarixdə bir nahaq və yalan iddiada bulunmaqda olubdur. Bu əski türk etnosu, yəni “Ayrım” etnosunun ölkəsinin və dövlətinin adı Orartu tərəfindən yeniləndən sonra tarixdə “Orartu” adı ilə , Sami dilli xalqların dilində “Araştua” və E.Ö 5- ci yüzillikdən sonra “Armini” , “Ermənіyə” , “Ermənistan” adı ilə tanınmaqdadır.Ayırımların yenildikdən öncə yaşadıqları bölgənin mərkəzi və qaynağı “Kapadokiyə” olmuşdur.  Bu ölkənin (yəni Orartu) bir neçə adı olub və düzgün desək , müxtəlif xalqlar tərəfindən verilmiş çeşitli adlar daşımış xalq və ölkədir. Amma bu ölkənin öz xalqı tərəfindən verilmiş adı, “Biyaini” vəya “Buyaini” imiş. Bu xalqın öz ölkəsinə verdiyi ad “Biyaini” vəya “Buyaini” yox ,  əslində “Büyü- ini” imiş və əski Yunan, Roma, Asur,Fars,İbri,və başqa türk olmayan xalqların dilində “Ü” ünlü səsinin olmadığı üçün, “Biyaini” və “Buyaini” formasında qeydə alınıbdır. ”Biyaini” və “Buyaini” ,bir çox alimlər və tarix uzmanları və araştırıcılar tərəfindən yorumlanıb və bu ölkə adını iki adlım göl,yəni “Urmiya” və “Van” göllərinin bu ölkedə yerləşdiyi üçün "sular ölkəsi" ya "su ölkəsi" anlamında yorublar , halbuki bu ölkənin adı “Ayrım” türk etnosunun yurdu olaraq , anlamı “Büyü ölkəsi” , “Büyü yurdu”dur. Öncə yuxarıda qeyd etdiyimiz kimi,“Ayrım”lar ovsuncu , büyücü,tibb həkimi,ruh həkimi (psikiyatır),sehirci,muskacı və eyni halda din xadimi və türk xalq din və inanclarını qoruyan adamlar olmuşlar.Demək bu əsaslarla “Ayrım”lar öz ölkələrinə “Büyü ini” (büyü , ovsun ,cadı, sehir və muska yurtu) adlandırmaqları yersiz deyilmiş.Biz çox yaxşı bilirik ki indiki “Erməni” adlandırdığımız xalq,əslində özlərini “Erməni” bilməyib,saymayırlar və sanmırlar.Bu Hind-avropa dilli və soylu xalq,öz aralarında , özlərini “Hay”, “Hayk” və yurtlarını da “Haystan” adlandırırlar. Erməni adlandırdığımız xalq çox yaxşı bilir ki anadoluda sehirli dənizin güney doğusunda yerləşmiş əski Ermənіyə /Armini / Ermənistan / Orartu / Buyaini , türk xalqların

ölkəsi olub və bu türk ölkəsi Ayrımini /Armini bölgə və vilayəti, əzəl gündən bəri əski "Ayrım" adlı türk tayfasının yurdu olmuş və kəndiləri sonralar avropa bölgəsindən (o zaman nə soy adı daşıyırmışlar hala bəlli deyil) gəzə-gəzə gəlib "Frigiya" yurduna və oradan "Hayasa" vilayətinə,yəni türk hitt / hett dövləti topraqlarına çatmış və zaman-zaman bu türk yurdunda (Orartu dövləti türk ölkəsi Arminini almadan öncə Armeni bölgəsində sığınıb,yerləşmiş ,kök salmış və sonra da Orartu şahları Ayrımini //Armini`ni alandan sonra, bu Hayların bir çox qismını Azərbaycanın Araz quzey sahillərinə köləlik və iş çəkmək üçün sürgün edib yerləşdirir və Orartu zamanından bəri indiki Ermənistan adlandırdığımız topraqlarında bulunmaqdadılar.Yerli türklər bu sürgün olanlara (Orartu`nun // Buyaini dövlətinin armini //ayrımini vilayət və bölgəsindən gəldikləri üçün ) yanlış olaraq soy adları ilə yox, bəlkə də gəlib sığınıb-yerləşdiyi türk ölkənin adı yəni "Armini","Erməni" vermiş və adlandırmış, eyni halda yerli türk xalqı onların bu yeni yerləşdikləri türk topraqlarına da , türk vilayət və ölkənin adını, yəni "Ermənistan" ərazi adını vərirlər və arazın quzey sahilində , indiki Haylar yaşayan yərə "Ermənistan" dedilər. Azərbaycan tarixçi Q.Qeybullayəv yazır : indiki Ermənilərin (Hayların) ulu əcdadları olan Firigi`lər eradan əvvəl, Balkan yarımadasından kiçik Asya`ya keçib gəlmişlər. Firigilərin bir qısmı Asur qaynaqlarında "Urume" və Orartu qaynaqlarında "Arm" vilayətində(əslində Armini kimidir lakin bu adın sonundakı "ini" Orartu dilində yer adlarının sonlarına artırılan şəkilçidir F.C) yerləşmişlər. Yazar sonra qeyd edir : "Arm toponimi Balkan yarımadasından köçüb gələnlərin sözüdürmü , yoxsa onlar Arm adlı olan ölkəyə gəlib oturmuşlar ?!, bu hala aydın deyil. 60 Görünür bizim öz tarixçilərimiz "Arm" sözünün nə olduğunu və nə ilə bağlı olduğunu,hələ çözə bilməyib və açıxlaya bilməyiblər və bir sırr və tarix gizi kimi qalmaqdadır.Böylə olunca başqaları bu gizli qalmış tarixi həqiqətlərdən yaxşıca öz xeyirlərinə görə yararlanırlar və sonra da böyük xulyalara dalmış olurlar və türkə ayid tarixi gərçəklər və olaylar bir başqasının adı ilə rəqəm yeyir və sonda öz gizli və üstü açılmamış tariximizin əsiri və giriftarı oluruq və hiç yol bulamırıq ki bu düyünləri çözə bilək. Bu gizləri çözə bilməyincə, "Böyük Ermənistan" və daha doğrusu "Böyük Hayıstan" topraqları xulyasilə üz-üzə gəlirik və batı dünyası və batı tarixçiləri də bu yersiz və boş iddiaya dəstək durur. Ayrım /Ayırım-ini türk ölkəsi və türk xalqı gizinin açıxlana qədər,bu bölgədə Türkün üzərinə olan yürüşlər və baskılar sona ərmiyəcək və davam edəcək. Ayrım türk ölkəsi və xalqının gizi və sirri çözülməyincə doğu anadolu topraqlarından başqa , Azərbaycan topraqlarına

baskın, yürüş və işqal olunma prosesləri davam edəcək , çünki “Böyük Ermənistan” xəritəsinə görə Türkiyənin doğu qısmı və Azərbaycan topraqları alınmalıdır. Bu soy-nəsil adını və eyni halda bu ölkə adını, türklər öz əlilə onlara vərib və indi də öz alışdırdığı odun içində yanmaqdadır . Bu üz vermiş vəziyyətdən görün rəqib və Türkə qarşı duranlar, tarix adına nələr söyləyirlər . Örnəyin tarixçi G.Kapansyan yazır : “Arim” adını daşıyan Hind-Avropa kökənli tayfa , Balkan yarım adasından kiçik Asya`ya , Hettlərin ölkəsinə , Hayasa adlı vilayətə (indiki Ərzincana) gəlmiş, sonra isə eradan əvvəl , 6-7 ci yüzillərdə , Erməni yaylasına , daha sonra Orartu ölkəsinə yayılmışdı 61 deməks aydın olur ki Ermənilər e.ö 6-7 yüzillərdə Erməni yaylasında yaşırmışlar , əsas söz burasındadır ki biz bu tarixçinin dediyi Erməniləri Avropa kökənli indiki ermənilər saymış olaq, yoxsa türk dilli və türk soylu Ayırım (Arm) tayfası vəya xalqı sayıb nəzərdə alaq.?!
Ən əsas problem və mövzu ARM ya Armini soy və dil kimliyini açıxlamaq və bu tarixi gizi çözməkdir. Bunun üçün türk tarixçilərin üzərinə çox bir ağır yük düşür və gərəkdir bu gizi çözmək . Rus tarixçisi Diyakonov yazır : “Erməni etnonimi “Arm” əyalətinin (ölkəsinin) adındandır. 62 Bu ad Midyalılara , Farslara, onlardan da Ərəblərə keçmişdir. Türk soylu Orartu şahları “Menua , Argişti , ikinci Sardur “ ARM əyalətini (ölkəsini) işqal edib Orartuya qatmışlar. Birinci Argişti bu əyalətdən 6600 döyüşçü , ikinci Sardur isə 10,000 nəfər ailəni, Van gölü ətrafi əraziyə (yəni Orartu`ya) və sonrada indiki Yerevan şəhərinin yaxınlığında tikdikləri "İrpuni" qalasına köçürtmüşlər. Azərbaycan ərazisində indiki Ermənistana ilk ermənilərin və daha doğrusu Avropa kökənli Hay Ermənilərinin gəlməsi də, bu olaylar və hadisələrlə bağlıdır.63 Hay`ların bu bölgələrə gəlmələrindən çox öncələr, “Erməni” türk sözü , bir türk adı kimi Orartu//Buyaini// Ayrımini türkləri tərəfindən kullanmakdayımış. Bu yerli türk xalqı İÖ 7-8 yüzilliklərdən bəri bu Ərmən /Erman və Ayrıman adları ilə tanış idilar və öz çocuqlarına da bu kimi adları qoyurmuşlar. Örnəyin Orartu//Buyaini//Ayrımini şahı Rusa`nın atasının adı “Erimena”imiş. Oscar White Muscarella , Asur şahı Sargunun Orartu`ya hərbi yürüşü haqqında yazdığı raporun önyazısında prof. Stephan Kroll qeyd edir ki Sargunun Orartuya savaş yürüşü zamanı , Orartu şahı Rusa "Erimen"//“Erimən”in oğlu idi . 64

“Ayrım”lar türk dünyasının dinsəl və dini axundları və xadimləri , Şamanları və Moğları kimi bütün türk ölkələrinə və topraqlarına yayılmaqda olmuşlar. Ayrımlar ən əski zamanlardan bəri , əski daş dövründən bəri, ovsundan , muskacılıkdan

başlayaraq son dövrlərin Zərtüşt dininin Möğları //Magları olaraq , Moğ və Mag / Maq kimi əski dünyayə tanınmışlar və get-gedə əsil həqiqi “Ayrım” adı itib-batıb-gedib və "Maq" formunu və adını qazanıb daşımaqda olub.“Ayrim” yəni “öncədən xabər verən ” , “öncədən görən” deməkdir. Əski türk dilində “büyü” və “sehir” və “ovsun”a “Arpağ” da deyərmişlər ki həmən türkçə “Ayrım/Arm/Arma” (türk etnonimi Ayrım /Arım /Arm və eyni halda türk ölkə adı Armini /Armeniyye/ Armanıstan / Armenistan) sözləri ilə türk dillərinin səs dəyişimi qanununu və özəlliklərini (B-M səslərinin dəğişilməsini) göz önünə alarak, eyni sözdür , yə`ni əslində Arpağ sözü həmən Arm/Armağ /Arma sözüdür. Arbağ ----> (B ----> M) Armağ -----> Arma /Arm . Böylə olaraq bu sonuca çatırıq ki əski tarixdə özəlliklə Anadolu əski tarixində “Arbuni” ölkə adı da həmən əski türk ölkəsi olan Armini /Arm.uni / Armeniye/Arm.in.stan`dır. Arbuni -----> Armuni -----> Armini ----> Armeni -----> Armeniya . Bu yuxarıdakı örnəklərdə Arm`la başlanan söz və adlarının sonluğunda olan “ini” və “uni” sonluqları , Orartuca yəni Orartu dilində olan sonluqlardır. Orartu iltisaqi(bitişik) dilində “ini” , “uni” sonluqları , yurd , ölkə , vətən deməkdir. Arm.ini sözü və adı, Arm yurdu , büyü və büyülər yurdu deməkdir. Türkcə “Arm” və “Arpağ” sözləri ilə bağlı bizim Azərbaycanda və Anadolu`da çoxlu toponim , hidronim , oronim və etnonimlərimiz var , o sıradan Arpa çayı , Urmiya şəhəri ,Urmiya gölü , Armenistan yaxud Ermənistan ölkəsi, Armutlu köyü və sayirə... Arpa çayının adı əslində “Arbağ” imiş : Arbağ ----> Arpağ ----> ağızda ifa zamanı sözün sonundaki yumuşaq "ğ" samiti saqit olub düşərək ----> Arpa (= büyü/büyülü /büyülənmiş/büyü yurdundan gələn su və ırmak) . Urmiya şəhərinin adı , gölün adından götürülüb və bu gölün adı əslində “Armya” olub və əski türk sözü “Arm” (= sehir , ovsun , cadı , büyü , muska) və əski türk sözü olan “Ya” (= engin su , dəniz , dərya , göl)dan yaranıb və anlamı “ büyü yurdunun göl`ü ,büyü gölü ,büyülü göl” deməkdir. Arm.ya----> Armiya ----> Ormiya ----> Urmiya . Şəmsəddin Sami öz qamusunda "Arpağ" sözünün anlamında belə yazır : Arpağ = (qıssalmışı “Arpa” F.C) əski bütpərəst türk moğ ,kahin, Qam başçılarının xəstələrə oxuduqları büyü , ovsun ya sehirdir.65 Ş.Sami “Arpağcı” sözünün anlamında yazır : ovsuncu , sahir , büyücü , üfürükcü .66 Əski tarixdə türk yurdu və ölkəsi olan “Manna”da “Armaiti” adlı şəhər və vilayətdən ad aparılıb . Eyni halda Ərəb qaynaqlarında da hər zaman olduğu kimi, güney (İran) Azərbaycanında “Urmiya” və “Urm” adlı iki toponimdən ad aparılıb ki bunların hər ikisi də indiki “Urmiya” şəhər və toponimin adı ilə bağlı və ilgilidir. Azərbaycan tarixçisi Q.Qeybullayev`ə görə çox ehtimalla indiki “Urmiya”

şəhərinin adı , “Urmeyate” toponimi adının qıssalmışıdır(Q.Qeybullayev- Azərbaycan xalqının təşəkkülü tarixi). Əski türk dilində “Arım” , “ irim” sözləri “fal”,“nişanə”,“bəlgə”,“ öncə görən”,“öncədən xəbər verən”,“ovsun”,“cadı”, “büyü” və “sehir”dir. Qeybullayev yazır ki bu “Armaiti” adın tərkibində “Ata” sözü işlənibdir (Arm+Atey) və çox ehtimal ki indiki “Urmiya” vilayəti və şəhəri “Moğ”ların vəyaxud ”Maq”ların yeri-yurdu və iqamətgahları olmuş olsun. Buna görədir və təsadüfi deyil ki “Urmiya” şəhəri “Zərtüşt”ün doğulduğu yer sayılır. Quzey Azərbaycanın Zagatala bölgəsində də “Armatiyan” adlı oronim (dağ) var ki çox ehtimalla mağ`lar ya moğ`larla ilgilidir. Yəni bu dağın adı “Arm” + ”Atey” +”An” sözlərinin tərkibindən yaranıb və bütövlükdə anlamı "büyücü və sehirci papazların yeri və məskəni" deməkdir. Bu tərkibdə "Arm" sözünün anlamı və məna çalarları "büyü","sehir" ,"ovsun","cadı","fal","taleh","baxt" və "iqbal", "öngörülük","öncədən xəbər vermək","muskacılıq"(=duva yazma), "muskacı", "büyü və muska ilə tədavi etmək" və bu kimi anlamlar və məna çalarları deməkdir . "Atey" /"Atay" sözünün anlamı və məna çalarları "Ata","Dədə"," Ağ saqqal", "papaz","kahin","Moğ","Mag","Şaman","Qaman","molla","Hoca","Katolikus" , "pap","papa" və bu kimi anlamlar deməkdir. “An” bir ehtimala görə “cəm” , çoxluq əlaməti və bəlgəsi sonluğu olmuş ola və başqa ehtimala görə əski türkcə və Orartuca “in” və “ini” (= yurd , məskən, yuva, yaşayış yeri), toponimlərdə özəl sonluq və şəkilçi olmuş ola. Burada yeri gəlmişkən bunu da artırmalıyıq ki “Ermya”/ ”Armya” peyğəmbərin adı da çox ehtimal olunur ki “Arm” /Armya / Urmya toponimləri ilə vəya büyü , ovsun sözləri və adları ilə bağlı olmuş ola və bu peyğəmbərin adı onun türk soyundan və Ayırım /Arım/Arm ya Mağ tayfasından olmasını göstərir.

“Ayrım” türklərindən tarixdə əski ana və doğma yurdlarının quru adı , Armini/Armeniya/Ermənistan/Erməniyə və avropa soylu Hay xalqının yanlış olaraq öz üzərində daşıdığı “Erməni” soy adı kimi nişanələr qalmaqdadır. “Ayırım” türklərinin əsil , həqiqi və doğru ərazisi indiki Ərzincan ta kapadokiyə bölgəsi ərazisindən tutmuş sehirli dənizin güney doğu sahillərinə qədər uzanıb gedirmiş. Araz ırmağının quzeyində yerləşən Armeniya ya Ermənistan ölkəsinin adı , tarix baxımından və tarix elmi açısından , əsil , həqiqi ölkə və etnos adı deyil. Bu Azərbaycan topraqlarının Ermənistan adı daşıması, buna görədir ki Orartu dövlətinin Ayrımini // Ermənistan türk ərazisində yerləşmiş “HAY”ların, Arazın quzey bölgəsinə sürgün olub yerləşmələri üzündən, yerli türk xalqları onları

Ermənistandan gəldikləri üçün , Erməni adlandırdılar və Erməni türk adını həqiqəti düşünmədən, onlara taxma ad kimi taxdılar və zaman sürəsində bu taxma ad nahaq və yersiz olaraq Hay xalqının üstündə qaldı və onlar da yeni yerləşmiş yurtlarına da Ermənistan adını verdilər , yoxsa əsil həqiqi Ayırım türklərinin yurdu və ölkəsi Erməniyyə/Armini / Ermənistan, Anadoluda Van gölü və Urmiya gölü çevrəsində yerləşmiş bir türk ölkəsi imiş. Muska (=duva/dua) ya tilsim bir doğal ya ğeyr-i doğal maddədən düzəlmiş bir şey ya araçdır ki onda qoruyucu büyülü quvvələr və xoş talehi və ikbalı cəzb edir və eyni halda şeytani , sehirli şərur və zərər verən devləri (=demonları) ,ziyan verici Tanrılar və Tanrıçaların əməllərini və güclərini isə dəf edir. Muskalar insanın kəndisi ilə daşınır və ya bir yerdə ki onun büyü tə`sirləri ora lazimdir , bağlanır ya tikilir. Belə inanılırdı ki bu muskalar gücünü , tə`sir edici quvvəsini iyi və yaxşı köklü və yaxşı niyyətli büyülərdən təbiət və doğa ilə ilişkilərdə , dini törənlərdə və s. alıbdır. Belə nəzərə çarpır ki Şümer və Akkad dillərində “muska” üçün bir termin ya söz yox imiş , halbuki bir sıra muska və tilsimə ayid əşyalar (şəylər) , o sıradan möhürlər (nişanlar) işlədilirdi. Çoxraq o şeylər ki büyü və tilsim rolları var imiş , qəbir və məzarlarda tapılıbdır. Yəni Assur dövrünün şahları dəmir və metal tilsimlərlə bəzədilmiş boyun bağları , boyunlarına asarmışlar. Elə bu dövrüdə qadın , çocuk doğan zamanı “Pazuzu” adlı tanrının metal vəya daşdan qayrılmış başını öz boynuna asarmış ki çocuğunu “Lamaştu” tanrıçasından qorusun. “Lamaştu”nu xalq bir qadın və dişi dev ya Tanrıça tanırdılar və zərər verici Tanrıçaların ya şeytani devlərin və güclərin başında dururdu. Bu tanrıça , “An” tanrısının qızı sayılır və bu tanrıça Şeytan mələyini kəndi istəkləri və amacı üçün tərbiyə edibdir. “Lamaştu”nun əsil qurbanları yeni doğulmuş körpələr ya qarındakı çocuklardır. Uşağın salınması vəyaxud sıqt olunması və ana qarnında ölməsi və həmçinin yeni doğulmuş körpələrin ölməsi bu tanrıçaya bağlıdı. Lamaştu hamilə və boylu qadının evinə girib , çalışır ki qadının qarnındakı çocuğu öldürmək üçün , yeddi dəfə qadının qarnına əl sürsün və yaxud çocuğu dayəsindən oğurlsın. Buna qarşı olaraq hamilə qadın “Pazuzu” tanrının bürünçdən düzəlmiş başını bir muska və tilsim kimi boynundan asar. Döş sancakları peşkeş və hədiyyə etməkdə , Lamaştunu aldadıb və qovmaq üçündür. Lamaştu tabloları metal ya daşdandır ki onun şəkk və şüphəsini təsvirə çəkirdilər ki bu da onun büyülü qoruma niyyəti və qəsdini göstərmək idi. Lamaştu`nu tablolarda yatağında yatmış və bir xəstəlik daşıyıcısı bir erkək kişi kimi görürük. Lamaştu belə tasvirə çəkilir : Başı aslan başı , eşşək dişlərilə , çılpaq döşlərlə (göyüşlərlə) , çox tüklü tən və bədən ilə , qan`la ləkələnmiş və qana bulaşmış

əllərilə , uzun barmaqlar və uzun dırnaklarla və ayakları quş caynağı (imdugud) kimi dir. Bir köpək tulası və bir donuz onun döşündən (əmcəyindən) süd əmir və iki əlində də ilan tutub saxlayır.67 ... Bunlar böyük ölçüdə, tanrıların tufan (fırtına) çıxardıb- insanlığı yox etmə sehirliliyi ilə ilgili olmalıdır. Bə`zi tanrıların bu acımasız sehirlərdan xoşlanmadıqlarını və üzüntü duyduklarını görürük. Sonra da kitab-i müqəddəs`dəki Nuh`un qarşılığı olan Ziusudra`ilə tanışırıq .Dindar,tanrı qorxusu olan ,düşlər və büyülü sözlər yoluyla bildirən tanrısal vahiyləri həp gözətən bir kral olaraq bətimlənmiştir... 68 Babil uygarlığı dövründə ədədlərin də muskada özəl yeri və rolları olmuşdur. Ədədlərin də muskada özəl anlamları olub,örnəyin 3 ədədi hər zaman büyüdə önəmli nəzərə alınıb,çünki Babillərin dünya görüşlərində , dünya 3 qat`a bölünmüşdür : göy , yer və yeraltı dünya. Büyüdə 4 ədədinin də özəl yeri var imiş .Əski Şümerlər çox ehtimal ki yeri dörd bucaq bilirmişlər yəni 4 bucağı var imiş və bu 4 bucaq , 4 yelin əsdiyi yönləri göstərir: Güney , Quzey , Doğu və Batı. Amma ədədlərin içində əski mezopotamiyada , ən önəmli ədəd 7 imiş və 7 burc`la (7 ulduzla ya 7 bacılarla) bərabər imiş. Büyülər , tilsimlər gərəkdir 7 dəfə təkrarlanardılar 7 dev (demon) ya kötülük devlərini qovub və 7 tanrını çağırmış olardılar. Büyü və ovsun törənləri də 7 dəfə gərək təkrarlana idi və 7 tilsim və büyü və ya muska , boyundan asılmalı imiş.69 Burada yeri gəlmişkən lazim görünür ədədlər haqqında deyilə ki türk mifoloji və mitolojisində bir sıra ədədlərin də büyü , büyücülük tilsimlər aləmində , özəl yer tutmuşlar ki bu büyü və büyücülük ədədlərinin başında duran , 7 ədədindən ad aparmalıyıq. Yeddi (7) ədədi türk mifoloji və mitolojisində hərzaman özünü türlü-türlü mifik əfsanələr və nağıllar və astronomiya obrazlarının biyografiyalarında və türlü-türlü tanrılar və tanrıçaların əsrarəngiz həyatlarında iştirak edib və özünü göstərməkdədir. Bunu da artırmalıyıq ki , yeddi (7) ədədin adı da bu gərçəyi açıxlamaqdadır və bu ədədin anlamı da büyü və tilsimdir. Bu ədədin adı əslində "Yedə"/"Yede"/"Yədə"(yetə /yete / yətə)dir. Bunu da bilirik ki “Yedə”/"Yede"/ "Yədə"/Yadı/Yatı , əski türk dilində , büyü və cadı , tilsim deməkdir və bu ədədin mifik və mifoloji özəlliklərinə görə , onun adını türk xalqları “Yadı” , “Yedə” və "Yede" sözündən alaraq , yedi , yeddi , yeti , yetti qoyubdur. Başqa özəl ədədlərdən büyülərdə 8 , 50 , 60 , 3600 , 36000 ədədlərini ad saymak olar . Gahdan da olurdu ki hər bir ədedə bir tanrının adını verirmişlər və ədədi yazarkən , tanrının adını yazarmışlar. Örnəyin 20 =“Şəməş” , 30= “Sin” , 40= “Ea” və 50= “Enlil” imiş. 70

Burada qeyd etməliyik ki "Nusku" ya "Nuska"nı açıqcasına və tam cür`ətlə , büyü , ovsun,sehir tanrısı kimi adlandıra bilərik. Sehir , büyü və ovsunun ən önəmli tanrısı həmən bu "Nusku" ya "Nuska" tanrısıdır. Nusku ya Nuska , əski türk dillərində "N" və "M" hərflərinin bir-birinə çevirilməsi qanunu`nu nəzərə alaraq həmən "Musku" ya "Muska"dır. Və indiki işlənən "Muska" sözü də , həmən tanrı "Nusku" ya "Nuska"nın adından alınmadır : Nusku--->Nuska---> (n--->m) Muska . Demək indiki işlətdiyimiz "Muska" sözü əski Sümer türklərinin tanrısı sayılan "Nusku" ya "Nuska" tanrısının adından alınmadır. "Nuska" ya "Muska", əski türk sözü sayılaraq "yazı" , "məktub" , "bitik" , " tanrılar və sehirli , kötülük tanrıları və devləri(demonları) , büyülər və ya büyülü sözlər siyahisi və listəsi" anlamında deməkdir. Eləcə də sami soylu xalqlar , o sıradan Akkadlar , Babillər , Assurilər , Amurilər , Arameylər və indiki Ərəblərin ulu əcdadları , bu əski Türk –Sümer sözünü tərs oxuyaraq və tərs yazaraq , onu "kamus" formasına çıxardıb , işlədiblər. Bu prosəs əslində belə olubdur : Nus.ğa---> Nus.ga---> Nus.ka---> (n--->m) Mus.ka----> Ka.mus . İndiki işlənən Kamus/Qamus (=sözlük,lüğətlər toplusu) sözü də , sami soyluların iki hecaya ayırıb tərs və əksinə yazdıqları "Muska" sözündən alınma sözdür və hər ikisi də əslində eyni anlamı daşımaqdadır. Bunu da qeyd etmə liyik ki Ərəb ,Fars və güney Azərbaycan turklərinin işlətdiyi "nosxə" ,"nüsxə" sözü əslində həmən yuxarıda qeyd etdiyimiz "nusğa" /"nusqa"/"nuska" sözünün başqa fonetiki variantıdır və eyni sözlərdilər. "Muska" əski zamanlar , tanrılar və kötülük tanrıların , sehirli quvvələr və devlər (demonlar) toplumu siyahısı və listəsi imiş və indi də "kamus"/"qamus" dediyimiz söz də, luğətlər , sözlük və sözcüklər siyahisi , listəsi və toplanmışıdır. Əski mezopotamiyada Şümerlərdən tutmuş ta Assur və yeni Babil dövrünə qədər , "Nusku" ya "Nuska" tanrısı sevilib , tapınılırdı. "Nusku" ya "Nuska" tanrı , Enlil tanrının oğlu və həm vəziri (qaim məqamı) sayılırmış. O bir Şümer mənzuməsində , Enul və Ninul`un oğlu kimi tanıdılır. "Nusku" ya "Nuska", qaim məqamlıq və Vəzirlik məqamından başqa , od və ışıkla ilgili bir tanrı kimi də vazifə daşıyırmış. Gahdan od tanrısı "Kimil" də onun oğlu sayılır. "Nusku" ya "Nuska" tanrının büyü ovsunlarında özəl yeri vardı və o sıra tanrılardan sayılır ki sehircilər tərəfindən və eyni halda sehirləri yandırmaqda , ondan imdad və yardım tələb olunur. Yeni Assur uygarlığı dövründə , "Nusku" ya "Nuska" , o sıra tanrılardan sayılırmış ki hamısı birlikdə "Hərran"da (Suriyanın quzey batısında) tapınılırmış. Bu tanrı Hərran`da "Sin" tanrının oğlu sayılırmış. Bu tanrının adı əski sami soylu Arameylərin yazılarında "NSK" kimi yazılırmış. "Nusku" ya "Nuska" tanrının bəlgəsi və simgəsi, piyə yandıran çıraq ya lampadır

ki KAS türklərinin dövründən ta yeni Babil dövrünə qədər , Mezopotamiya incəsənətində kuduru daşlar üzərində özünü göstərməkdədir. Piyəsuz çırağı bir tanrısal bəlgə kimi "Kas" türklərin dövründən ta yeni Babil dövrünə qədər , "Muska" tanrısının bəlgəsi kimi kuduru daşların üzərində həkk olunubdur.71

## İlkin büyücülər və sehirbazlar bəşər tarixinin, ilk müzisiənləri (=musiqiçilər) və ilk rəqqasları (dansozlar,oyuncular) olublar :

Əski daş dövründə,insan artıq rəqs və musiqiyə əl tapmışdı və mağaradakı daş dövrü rəsmlərindən tam bəlli və aydın olur ki o dövrün insanı (Şamanlar/Maqlar/Gamanlar) büyü işlərini , musiqi və rəqs ilə yerinə yetirərmişlər. Ən əski dövrlərdən bəri, şamanlar büyü etmə zamanı, büyü törənlərində musiqi alətləri, yəni Davul,zurna,saz (ney, bülül, fleyta) və zing (çang) çalarmışlar. Deməkrəqs`siz(dans`sız) , oyunsuz və musiqisiz , büyü və ovsun törənləri yapılmazmış. Bununla demək olar "Büyü" ,ilk musiqinin və ilk rəqsin (dansın) yaranmasına səbəb və təməl olur. Büyü`nun tə`sir etməsinə , musiqi və rəqs əsas quvvə və nədən sayılırmış. Bununla belə çıxır ki melodi və çalğı`ya ki orta doğuda "musiqi" və Avropada "musik" deyilir , eləcə də bu "Muska"nın adı ilə bağlıdır və əski zamanlar muska, büyünün ayrılmaz bir hissəsi olduğuna görə də, ritmik və harmoniyalı çalğıya da "Musiki" ,"Musika" , "Muzika" deyilibdir. "F. Jiran" Fransalı mitoloq "Assur və Babil Mitləri" adlı əsərində belə yazır : " beləliklə zənn etmək olar ki bu grup rəsmlər ki heç birisi real həqiqətə və gərçəyə yaxın deyil , təkcə bir mitolojiya səhnəsini göstərmək üçün , rəsm olunublar və əski daş dövrünün "orfeos" sayağının bir qismi və növüdür ki rəqs (=oyun) və musiqi ilə mit və mifik heyvanları büyü (cadı) və ovsun edir." 72

Ən əski zamanlardan yəni daş dövründən bəri , büyücülər , büyü və ovsun törənlərini yerinə yetirərək , büyü və ovsun virdlərini (sözlərini) çalğı ilə mızıldayaraq (ağızda mızıldamaqla və boğunaq səslə) oxurmuşlar. Jack. Duchesne Guillemin yazır : Moğlar boğunak səslə oxuyurlar və belə oxumaq , uca səslə oxuyan başqaları üçün, çox heyrət doğurucu imiş. 73 Prontiyus , zoroastrey Susurri`dən və Epoliyus isə, Magicum Susurramen`dən heyrətlə söz açırlar.74 Ərəblərin heyrətləri və şaşırmaları onlardan da az deyil idi və belə dua(duva) və vird oxumanı "Zəmzəm" ya "Zəmzəmə" adlandırırmışlar ki əslində türkcə sözdür və həmən türklərin işlətdiyi Zimzimə və yaxud Zümzümə sözüdür . "Wikander" bu konuda araştırmalar aparıbdı.75 Widengren moğlardan(maqlardan) söz açarkən

yazır : "Moğlar (Maqlar) ölkənin hər bölgəsindən öz ustad və bilginlərinin başına toplanarmışlar və bu Moğ (Maq) böyüklərindən "anlamsız və qanılmayan və yaxşıca duyulmayan dodaqaltı mızıldamağı" öyrənirmişlər və bu Moğ bilginlər və Moğ uzmanlarla "kor"(xor) ,yəni grup və cəm halda birlikdə "vird"(dua) oxuyaraq , dişlərini vəhşi donuz (yaban donquzu // qaban) kimi bir-birinə sürtürmişlər və dişləri belə sürtərkən , yol gedib , yürüyürlər ki bu da "Avara dərvişləri" bizə yansıtır". 76 Eləcə də "muska" sözü də türk dilində , büyücülər , ovsuncular və sonra Maqların ,qamanların və şamanların mızıldamaqları ilə ilgili adlanıb. Onlar büyü və ovsun edərkən və büyü törənlərini yaparkən , büyü sözlərini çalğı müşayiətilə mızıldarmışlar (zümzümə edərmişlər) və büyü sözlərini kimsə duymasın və ondan baş çıxartmasın deyə , və eyni halda sehirli quvvələr və güclər onu duymasın və ibtal (batil / əsərsiz) etməsin deyə , büyü sözlərini açıq , aşkara oxumayıb , ancaq ağızlarında mızıltı ilə (mızıldamaqla) ifa edərmişlər. Bunun üçün yaptığı büyü və cadı`nı, "mızıltı"dan alaraq , "Mızğa" , "Mızqa" , "Muzqa" , "Musqa" , "Muska" demiş və eyni halda bu işdə və bu törəndə çalınan çalğıya da "Mızıq" , "Mızık" , "Muzik" , "Musiq" , "Musiqi" demişlər. Demək bu sözlərin hamısının kökü "**Muska**"ya dayanır və ondan alınıb ya törənibdir. "Mızık" ya "Muzik" , büyü və ovsun olsun və ya çalğı və oxumaq olsun , hamısı insanın sağlamlığını , iyiliyini və keyfinin sağlamaq üçündür. Keyfininin nəş`ələndirisi üçündür. Sağlam , xəstə olmayan insan , ov`da başarı qazanmış insan , iyi və bol ov`lar ovlamış türk insanın keyfi saz və nəş`əli olur. Demək büyü , ovsun , çalqı , çalğı ilə büyücünün (Şaman ya Qaman`ın) göyə atlanıb düşməsi , rəqs və dans etməsi , əl-ələ verib yallı getmələri , insanın keyfinin pozğunluğunu , xəstəliyini , kədərini , uğursuzluğunu və başarısızlığını sağatmaq üçündür. Demək türk soylu (oğuz soylu) xalqların qamusunda "Mızık" / "Mızıq" , keyf və nəş`ə anlamında özünə yer açır. Bununla oğuz-türk xalqı "Mızıq" sözündən "Mezqun" sözünü musiqi çalgı alətlərinə (instrumentləri üçün) yaradır yəni "keyf və nəş`ə gətirən şey və araç " və bu aləti və aracı kullanana və çalana da "Mezqunçu" deyirmişlər. "Mezgun" türk sözü (=çalqı aləti), sami soylu Ərəb xalqının dilinə keçərək , bu sözün ikinci bölümü "qun"un yerinə "Mar" sözünü qoyaraq , onu "Mızmar" formasına salmış və həmən anlamda işlənməkdədir. Şəmsəddin Sami "Kamus-i Türki" adlı lüğət kitabında "Mızmar" sözünün anlamında yazır : Ərəbcədir və anlamı "musiqi aləti"dir : duduk , qoval , nay , davul 77. Bununla "Mızaq" sözü türk qamusunda yer tutub , işlənməkdə olur. Sonralar sami soylu xalqlar bu sözü türk xalqının minlər sözü kimi , alaraq və "q" səsini "C"ya çevirərək , onu "Mızac"

formasına çıxarır və öz dili qamusunda yerləşdirır. “Mızac” sözü qamuslarda indilik Ərəb bir sözü kimi tanınır və anlamı da “xuy , təbiət” ,"xasiyyət"(=xarakter) kimi işlənir. Şəmsəddin Sami “Kamus-i Türki”də Mızac sözünün anlamında yazır : Mızac Ərəbcədir və insan bədənində ixlatın bir nisbət üzrə qarışmasından tapılan hal və iste`dad-i tabii`yə deyilir. “Mızac” sağlık , bədənin səhət və illət(nedən) nükte-yi nəzərindən bulunduğu hal : Mızac-i a`liniz nasıldı ? 78. Sonra yazılır : Namızac = keyfsiz , hasta .79 Ş.Sami “Mızacsız” sözünün anlamında yazır : Kefsiz , hasta 80. Əski türk büyücülər , ovsuncular , maqlar və qam-şaman`lar ,büyü və ovsun işləri yaparkən xəstəni tədavi və əlac etmək üçün və keyfini , nəş`əsini yenidən sağatmaq üçün büyülənmiş,ovsunlanmış və vird oxunmuş dərmanları və içkiləri , xəstəyə yedidib içtiriridilər ki o xəstə sağalsın və bu dərmanlara və yedidilən və içtirilənlərə (“Mız , Mızıq , Mızık sözündən alınıb törənib) “Mizvərə , Müzvərə ya Mızvara “ deyirmişlər. İndi də İran Azərbaycanında türk xalqının arasında , yaşlı və yaşlanmış adamlar arasında bu söz işlənməkdədir. Demək əski türk xalqı dərman və davaya “Müzvərə” sözünü işlədirmişlər.

## İlkin büyücülər və sehirbazlar, bəşər tarixinin ilk tiatrocuları ,ilk dəlxəkləri , ilk cambazları və ilk balmaskacıları sayılırlar :

Büyücülər və ovsuncular (Şamanlar və Qamanlar) büyü və ovsun törənlərini yaparkən , özəlliklə ov və ovçuluq büyüləri yaparkən , qafalarına (başlarına) və üzlərinə “Maska” , özəlliklə də ovlanan heyvanların müqavvasını və maskasını taxarmışlar ki o heyvanların ruhları və tanrıları, ürküp qaçmasın və ya küsdürülməsin və inciməsinlər. Bundan belə sonuc çıxarılır ki “Maska” sözü də türk sözü olmuş və “Mızq / Mızıq / Mızık / Mısık / Mask və Maska`dan alınıbdır.
Mızıq ---> Mısıq ---> Mısık ---> Mısk ---> Mask ---> Maska
Büyücü , ovsuncu və ya Şamanlar və Qamanlar, maskanı üzə və başlarına keçirərkən , muzik və çalğı çalaraq göyə atlanıb – düşərmişlər və bu hərəkətlərə genəl olaraq “Masqara” , "Maskara" və yaxud “Masxara” deyərmişlər. İndi bu söz təməsxur və gülünc və dəyərsizlik anlamını türk xalqı arasında daşımaqdadır və birisi gülünc , güldürücü və ölçü-biçsiz iş görərkən , ona xitabən dəyilir :"Masxara iş görür , Masxara verir. Yəni xalqı özünə güldürür. Ərəb dilində işlənən “Muskır” (=مُسكِر sərxoş edən , sərxoşluq verən , nəş`ə edici içki , keyf verən , kəyfləndirən içki) də, həmən “mızıq” , “mısık” ya “musk” sözündən alınmış bir sözdür. Kuşkusuz ,büyücülər və şamanlar yeri gələndə ruhi , psixi xəstələri dərman və

tədavi edərkən bu içkidən xəstəyə içdirərmişlər və onu sərxoş edərkən öz büyülərinə başlarmışlar. Onlar yeri gələndə büyülərdə və büyü işlərini yaparkən , gözəl qoxulardan ,ətirlərdən və gül suyundan ya maral miskindən (maralın göbəyində olan ətirli mayədən) də kullanırdılar ki iyi və xeyirli ruhları və quvvələri özlərinə və xəstəni tədavi etmək üçün çağırsınlar və onları büyü çizgisi və hərim dairəsinin içərisinə çəksinlər. Buna görə elə "Misk" (= müşk , müşk-i ənbər) sözü də həmən "Mızg" /Mısk / Musk sözlərindən alınma və ilgilidir. Buraya qədər verilmiş bu izahatdan belə məlum olur ki büyü və cadı (=cadu) insan həyatının ilk günündən bəri , onun həyatının ən əsas bölümünü təşkil edibdir. İngiltərəli alim James George Frazer`in dediyinə əsasən , cadugərlik və büyücülük ilkin bəşər toplumları və mədəniyyətlərində , hər bir qəbilənin həyatında bir o qədər önəm daşıyirdı ki rifah və asayişi və o qəbilənin yaşamındakı xoşbaxtlığı , onun cadu və büyü törənlərinin yerinə yetirməsilə bağlı idi.Cadugər və yaxud büyücü ictima`da və toplumda çox böyük bir hörmət və izzət sahibi idi.Cadugər yaxud büyücü , çox rahatlıqla qəbilənin başçılığını və rəhbərliyini ələ ala bilərdi. Cadı və büyü , fikir və əndişənin bir növü və variantı və forması kimi bir güc və quvvə sayılır ki qəbilə hakimi ,Tanrı ilə o gücə və quvvəyə ortaq olur və belə bir büyücü və cadugər hakimə , heç bir kimsə rəqib ola bilməz və bu haqda təsəvvür belə etmək olmaz. **81**
Büyü və cadı  bəşər tarixində , dindən çox-çox artıq , möhkəm , tə`sir edici və güclü olubdur. James George Frazer`ə görə bir zamanlari bizim əcdadımız fikirlərini öz tərəfdarlarına açıqlarkən, onları tə`sir və nüfuz altında qoyurdular. Onun nəzərinə görə dinin əksinə (ki Tanrı pərəstlik məfkürəsini və ideyasını göstərəndir) olaraq , büyü və caduda bir güc və quvvə var ki insanın failiyyətindən və əməl iradəsindən təbəiyyət edir.Beləliklə bu məqalənin sonunda bu nəticəyə çatmaq olur ki büyü və cadı, sehr,tilism və ovsun, ilkin şıur və düşüncəyə malik olan ilkin bəşərlərin təfəkürünün və düşüncəsinin ilk təməl daşı və binövrəsini , özəyini və ilk mərhələsini təşkil edibdir. SON

**Yazar : Fərhad Cavadi Yekan Sədi (Abdulla Oğlu) / İran - Azərbaycan - Urmiya / 2014 Fevral ayı**

Kaynakça :

1- Brandon , Samuel George Fredrick – Religion in ancient history studies in ideas , men and events – Tr.By : Sudabə Fəzaili – Dinlər və Məsləklər İnistitutu Yayınları – Qum .2012 , P.27-29
2- Brandon , Samuel George Fredrick – Göstərilən kaynak , p.33-34
3- Mircea , Eliade – Shamanism : Archaic Techniques Of Ecstasy – Tr.By : M.K. Mohajeri – Baskı 3 – Dinlər Yayımı – Tehran 2013 , p.168
4- J.G.Frazer – Golden Bough - 1890
5- Brandon , Samuel George Fredrick – Göstərilən kaynak , p.32-34
6- F.Guirand – thə Myths of Assyria and Babylonia – New Larousse Encyclopedia of World Mythology- Tr.By: A.Esmailpur- Fekre Ruz publication- Tehran 1995 , p.23-24
7- F.Guirand – Göstərilən kaynak – p.25
8- Mircea , Eliade - Göstərilən kaynak – p.30
9- Mircea , Eliade - Göstərilən kaynak – p.41
10- Şəmsəddin Sami , Kamus-I Türki , 4-cü Basım , Kapı yayınları , İstanbul 2004 , p.318
11- Şəmsəddin Sami , Göstərilən kaynak , p.318
12- Jeremy Black and Anthony Green – illustrations By Tessa Rickards, Gods, Demons and symbols of Ancient Mesopotamia (An Illustrated Dictionary) – Translated by peyman Matin , p.206-211
13- Chevaliər , Jean / Gheerbrant , Alain- Dictionnairə des Symboles : mythes , reves, coutumes... — Tr.By : Sudabə Fəzaili – Ceyhun Yayınevi – Tehran 2009 , p.254-255
14- L.P.Putapov – Altaylıların Şamanlığında Ok və Yay – Sovet Etnografiya Jurnalı – Mosko 1934 –p.73
15- Mir ALİ Seyyidov , Azərbaycan xalqının soy kökünü düşünürkən , Tr.By Rəhim Şavanlı , Ahtər yayınevi , Təbriz 2006 , p.612
16- Mir ALİ Seyyidov – Göstərilən kaynak – p.612
17- Mircea , Eliade - Göstərilən kaynak – p.160
18- Mir ALİ Seyyidov – Göstərilən kaynak – p.613
19- Mircea , Eliade - Göstərilən kaynak – p.135
20- A.Anukin – Altaylarda Şamançılık –MAE – Cild IV – Bölmə II –p.41
21- L.P.Putapov- Göstərilən kaynak – p.74

22- A.M.Sakalayev – Mifolojiya və Altay İnamları – Novısibersk 1984 – p.24
23- V.V.Radlov , Türk Xalqların Lüğət Təcrübəsi , cild III, 1905
24- V.V.Radlov , Göstərilən kaynak
25- Şəcərey-I Tərakemə (Türkmənçə) , M-L , 1957 , P.27
26- N.A.Aleksiyev , Siberiya Türk Dilli Xalqlarının İlkin Din Formaları Biçimləri
27- N.A.Aleksiyev , Göstərilən kaynak , p.145-146
28- L.P.Putapov- Şorların Tarixi Baredə Məqalələr . M-L , 1936 , P.58
29- L.P.Putapov - Göstərilən kaynak
30- Kramer , Samuel Nouh – Tarih Sümər`də Başlar – Çevirən : Hamidə Koyukan – Kabalcı Yayınevi – İkinci Basım – 2002 İstanbul –p.222
31- Kramer , Samuel Nouh - Göstərilən kaynak – P.241
32- Kramer , Samuel Nouh - Göstərilən kaynak – P.242
33- Diogenes Laertius , Cild II , P.90 : Proem. I ,80
34- Mahmud Kaşgarlı , Divan-i Luğat ul türk , Tehran 1997 , p.994
35- Rəşidəddin Fəzlullah , Cami-ul Təvarix , Alburz Yayınevi – Tehran 1994 - Cedamişi hakkında açıxlama , p.2159
36- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2159
37- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2159
38- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2159
39- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2159
40- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2162
41- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2162 / James Frizer , Göstərilən kaynak , cild I , P.244
42- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2379
43- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.641-642
44- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.643-644
45- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , p.2128 : A.İnan , Şamanizm , D1 – 286 ` C: see .hist. , Mackenzie : Pahlavi Dictionary
46- Haşım Rəzi , Moğların Törənləri /İran Dinləri Hakkında Araştırma , Sokhən Yayınevi , Tehran 2004 , p.188-189
47- Strabo / XV.P.722

48- Jack. Duchesne Guillemin , Əski Iran din`i , Fekr-i Ruz Yayınevi , Tr. By Röya Münəccim , Tehran 1996 ,p.206
49- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.129
50- Hərodot , 15 , IV
51- Strabo , XXII , P.589
52- Haşım Rəzi , Göstərilən kaynak , p.287-288
53- Mir ALİ Seyyidov – Göstərilən kaynak – p.47-48
54- Şəmsəddin Sami , Göstərilən kaynak , p.240
55- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.288 : Ananikian , Armenia , ERE .I 794
56- Jack. Duchəesne Guillemin , Göstərilən kaynak , p.287
57- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.287 : Markwart , Wehrot .u.Arang , Leiden , 1938 , p.186
58- Rəşidəddin Fəzlullah , Göstərilən kaynak , cild III , (Ayğag sözünün izahı) p.2309
59- Mircea , Eliade - Göstərilən kaynak – p.134
60- Qiyasəddin Qeybullayev , Əski Türklər və Ermənistan , Azərbaycan Dövlət Nəşriyyatı , Baku 1992 ,p.29
61- G.A.Kapansiyan , Xayasa(Hayasa) – Kolıbel Armiyan Erevan , 1948 , p.163
62- Diyakonov , Predstoriya Armyanskogo Naroda , Erevan, p.235
63- Qiyasəddin Qəybullayəv , Göstərilən kaynak , p.29
64- Oscar Whitə Muscarella , The Elghth Campaign of Sargon II , Tr.By : Samad Elliyoun , Əxtər Yayınevi , Təbriz 2011 , p.27 : Stephan Kroll , Translated Collected Papers With An Introduction
65- Şəmsəddin Sami , Göstərilən kaynak , p.28
66- Şəmsəddin Sami , Göstərilən kaynak , p.28
67- Jeremy Black and Anthony Green , Göstərilən kaynak ,
68- Kramer , Samuel Nouh - Göstərilən kaynak – P.190
69- Jeremy Black and Anthony Green , Göstərilən kaynak , p. 239-240
70- Jeremy Black and Anthony Green , Göstərilən kaynak , p.240
71- Jeremy Black and Anthony Green , Göstərilən kaynak ,p.241
72- F.Guirand – Göstərilən kaynak – p.23
73- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.359 : Bidez Cumont , Mages Hellenises , II , P.285

74- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.359
75- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.359 : Feuer Priester , p.29
76- Jack. Duchesne Guillemin , Göstərilən kaynak , p.359
77- Şəmsəddin Sami , Göstərilən kaynak , p.1331
78- Şəmsəddin Sami , Göstərilən kaynak , p.1329-1330
79- Şəmsəddin Sami , Göstərilən kaynak , p.1330
80- Şəmsəddin Sami , Göstərilən kaynak , p.1330
81- Fzuli Bəyat , Mitolojye Giriş , Tr. By Kazem Əbbasi , Yaran nəşri , 1- ci çap , 2011 , Təbriz , səh.57